ELM

Qüvvət elmdədir...
Nizami Gəncəvi

НАУКА
Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE
Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

№ 27 (1509) ❖ Cümə, 25 sentyabr 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



# Qarabağ və Şərqi Zəngəzurun yeraltı sərvətləri dövlətin sənaye gücünə çevrilir

## *Prezident İlham Əliyevin sədrliyi ilə dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramına həsr olunmuş müşavirə keçirilib*

**Sentyabrın 22-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirə keçirilib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.**

Prezident İlham Əliyev ölkə iqtisadiyyatı üçün çox perspektivli sahə olan dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramının hazırlanması üçün aprelin əvvəlində müvafiq Sərəncam imzaladığını xatırladıb. Qeyd edib ki, bu sahə ölkəmizin qeyri-neft sektorunun inkişafı üçün böyük əhəmiyyət daşıyır, eyni zamanda, ölkəmizdə yeni, müasir sənaye istiqaməti yaradılır. Bütövlükdə bizim təbii resurslarımızın işlənməsi və onlardan səmərəli şəkildə istifadə olunması, eyni zamanda, istehsal zəncirinin tam yaradılması ölkə iqtisadiyyatını gücləndirəcək.

"Əfsuslar olsun ki, Azərbaycanda dağ-mədən sənayesi həm obyektiv, həm subyektiv səbəblərə görə lazımi səviyyədə inkişaf etməyib. Obyektiv səbəblər ondan ibarətdir ki, sovet vaxtında aşkar edilmiş bizim bir çox yataqlarımız işğal altında olan bölgələrdə yerləşirdi və Ermənistan dövləti öz işğalçılıq siyasətini, o cümlədən Azərbaycan xalqının və dövlətinin təbii resurslarını talamaqda da davam etdirirdi. Təkcə onu demək kifayətdir ki, işğal dövründə Kəlbəcər, Laçın və Zəngilan rayonlarında 60 min hektar meşə fondu Ermənistan dövləti tərəfindən məhv edilib, talan edilib, kəsilib, satılıb və artıq İkinci Qarabağ müharibəsindən sonra yandırılıb... O cümlədən bizim təbii resurslarımız - qızıl, mis, molibden yataqlarımız talan edilirdi. Təbii ki, işğal dövründə Ermənistan dövləti ancaq talançılıqla məşğul idi".

Dövlətimizn başçısı qarşıda duran ilk məsələnin işğaldan azad edilmiş ərazilərdə istismarda olan yataqların tezliklə işə salınması olduğunu deyib: "Bunlar, ilk növbədə, Kəlbəcər, Ağdərə və Zəngilan rayonlarında yerləşən qızıl, mis, molibden yataqlarıdır. Ağdərə rayonunda artıq işlərə başlanılmışdır. Ümid edirəm ki, yaxın gələcəkdə həm Kəlbəcərdə, həm Zəngilanda da işlərə start veriləcək və beləliklə, mövcud olan, yəni aşkar edilmiş yataqlarda istismar artıq başlanılacaq. Eyni zamanda, mövcud yataqları biz tam təhlil edib müasir geoloji üsullarla oradakı ehtiyatları tam dəqiqləşdirməliyik".

Prezident İlham Əliyev ikinci istiqamət kimi, həmin bölgədə böyük təbii resurslar olduğunu nəzərə alaraq, bu məqsədlə geoloji kəşfiyyat işlərinin aparılacağını vurğulayıb. Qeyd edib ki, digər perspektivli bölgə Naxçıvan Muxtar Respublikasıdır və orada da gələn ildən geoloji kəşfiyyat işləri başlamış olacaq.

"Biz işimizi iki istiqamət üzrə qururuq. Birincisi, dövlət xətti ilə. "AzerGold" şirkəti bu məsələləri həll edəcək. İkincisi, özəl sektorun iştirakı ilə. Bu sahə özəl sektor üçün də açıqdır və mövcud olan kontraktlar da icra edilir... Xarici tərəfdaşlar tərəfindən aparılan geoloji kəşfiyyat işləri nəticə verərsə, təbii ki, xarici investorlar da iştirak edəcəklər", - deyə dövlətimizin başçısı bildirib.

Ölkə başçısı çıxışında növbəti istiqamətin Avropa qitəsində ən perspektivli yataqlardan biri sayılan Balakən rayonunda yerləşən "Filizçay" polimetal yatağının istismarı məsələsi olduğunu deyib: "Artıq bir neçə ildir ki, "AzerGold" şirkəti bu yatağın istismara hazırlanması ilə bağlı işlər görür. Hesab edirəm ki, tezliklə texniki-iqtisadi əsaslandırma hazır olmalıdır və yekun investisiya qərarı da qəbul edilməlidir. Mən hesab edirəm ki, "AzerGold" bu yatağın 100 faiz səhmdarı olmalıdır. İstismar getdikcə təbii ki, bu yatağın qiyməti də, dəyəri də qalxacaq".

Prezident İlham Əliyev bu yaxınlarda Qərb Sənaye Parkının yaradılması ilə bağlı Fərmana da toxunub: "Qərb Sənaye Parkının yaradılmasının əsas məqsədi məhz dağ-mədən sənayesinin inkişafıdır. Çünki "Daşkəsən" filiz yatağının istismarı və ona yaxın olan bölgələrdə digər layihələrin icra edilməsi, əlbəttə ki, məhz Qərb Sənaye Parkının yaradılmasını şərtləndirdi. Burada, ilk növbədə, tezliklə infrastruktur yaradılmalıdır və bu məqsədlə büdcədə lazımi vəsait nəzərdə tutulmalıdır. Dağ-mədən sənayesinin son məhsula qədər tam zənciri yaradılmalıdır. Burada təbii ki, filiz hasilatı və bir neçə zavodun yaradılması nəzərdə tutulur. Zənginləşdirmə, pelet və briketlənmiş dəmir zavodları yaradılmalıdır. Burada, təbii ki, bu filizin daşınması önəmli yer tutur Maksimum ekoloji ekspertiza aparılmalıdır və bütün ekoloji normalar gözlənilməlidir".

Dövlətimizin başçısı metallurgiya sənayesinin inkişafına dair qəbul olunacaq proqram çərçivəsində 2030-cu ilin sonunadək bir neçə zavod yaradılacağını və alüminium istehsalının 100 min tona çatdırılacağını qeyd edib, sahənin gəlirliliyini nəzərə alaraq yerli və xarici investorlar üçün imkanların açıq olduğunu bildirib.

Xüsusilə vurğulayıb ki, bu layihələr işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun inkişafını və orada məşğulluğun təmin olunmasını əhəmiyyətli dərəcədə sürətləndirəcək, sənaye istiqamətinin formalaşması ilə beş mindən çox yeni iş yeri yaradılacaq.

Prezident İlham Əliyev eyni zamanda qeyd edib ki, güclü ixrac potensialı formalaşdıracaq və dövlət büdcəsinə böyük vergi gəlirləri təmin edəcək bu nəhəng təşəbbüslərin illik müsbət maliyyə təsiri bir milyard manatdan artıq olacaq.

Sonra müşavirədə proqramın təqdimatı olub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov proqramın əsas məqsədlərinin daha çox xammal hasil etmək deyil, bu, xammalı ölkə daxilində daha çox emal etmək və daha yüksək əlavə dəyər yaratmaq olduğunu bildirib. Qeyd edib ki, təqdim olunan Dövlət Proqramı layihəsi ölkədə mineral xammal bazasının genişləndirilməsi, hasilatdan hazır məhsuladək tam yerli sənaye zəncirinin qurulması və yüksək əlavə dəyər yaradılması məqsədilə əsas inkişaf istiqamətlərini müəyyən edir. 2027-2030-cu illərdə təxminən 80 faizi qeyri-büdcə mənbələrindən olmaqla ümumilikdə 5,3 milyard manat investisiyanın yönəldiləcəyi proqram çərçivəsində sektorun ÜDM-dəki payının 1,8 milyard manata, illik ixrac potensialının isə 3,4 milyard manata çatdırılması hədəflənir. Nəticədə müasir nəqliyyat-logistika infrastrukturu və resurs potensialı hesabına Azərbaycanın strateji minerallar üzrə regional emal mərkəzinə çevrilməsi, eləcə də regionlarda məşğulluğun və iqtisadi fəallığın əhəmiyyətli dərəcədə yüksəldilməsi nəzərdə tutulur.

Müşavirədə çıxış edən "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov son 10 ildə şirkətin fəaliyyətini genişləndirərək geoloji kəşfiyyatdan hasilat və emala qədər tam dəyər zəncirini əhatə edən çoxşaxəli milli dağ-mədən müəssisəsinə çevrildiyini, əsas hədəfin isə 2030-cu lədək illik dövriyyəni 1 milyard manata çatdırmaq olduğunu bildirib.

O, cəmi 10 faizi dövlət büdcəsi hesabına maliyyələşdiriləcək 3,63 milyard manatlıq investisiya portfeli çərçivəsində "Söyüdlü", "Ortakənd", "Filizçay" və "Daşkəsən" kimi 4 nəhəng strateji layihənin icra olunacağını diqqətə çatdırıb.

Zakir İbrahimov qeyd edib ki, bu layihələrin reallaşması nəticəsində qızıl hasilatı əhəmiyyətli dərəcədə yüksələcək, illik 2 milyon ton isti briketləşdirilmiş dəmir istehsalı ilə qara metallurgiya gücləndiriləcək və əlvan metalların tamhəcmli emalı ilə ölkənin qeyri-neft ixrac potensialı kəskin artacaq.

Daha sonra müşavirə müzakirələrlə davam etdirilib.

# AMEA-da keçirilən islahatlar elmi fəaliyyətin strukturunda və məzmununda keyfiyyət dəyişiklikləri yaradıb

## *AMEA-nın Rəyasət Heyətinin iclasında*



**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, eləcə də AMEA-nın Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi müəssisə və təşkilatların direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova "AMEA-nın Əziz Səncər döş nişanı" təqdim edilib.

İclasda müzakirə edilən ilk məsələ Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 20 avqust 2026-cı il tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr haqqında olub.

Məsələ ilə bağlı çıxış edən akademik İsa Həbibbəyli bildirib ki, Dövlət Proqramında Azərbaycanın zəngin tarixi-mədəni irsi, etnoqrafik müxtəlifliyi, qədim yaşayış məntəqələri və beynəlxalq ticarət yollarının mədəni turizm növünün inkişafı üçün geniş potensiala malik olduğu vurğulanır, bu istiqamətdə "Böyük İpək Yolu" turizm məhsulunun yaradılması və inkişaf etdirilməsi, maddi və qeyri-maddi mədəni irs elementləri əsasında interaktiv turizm təcrübəsinə əsaslanan mədəni turizm məhsullarının yaradılması və təbliğ edilməsi nəzərdə tutulur.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Dövlət Proqramının Tədbirlər Planında "Böyük İpək Yolu" turizm məhsulunun yaradılması və inkişaf etdirilməsi istiqamətində "Böyük İpək Yolu" turizm marşrutunun məzmununun hazırlanması, təsdiq edilməsi və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın qurulması, "Böyük İpək Yolu" ilə əlaqədar turizm təcrübə məhsullarının yaradılması, turizm sənayesi və beynəlxalq tərəfdaşlar üçün məlumatlandırma tədbirinin keçirilməsi nəzərdə tutulub və Azərbaycan Milli Elmlər Akademiyası bu tədbirin icraçı qurumlarından biri kimi müəyyən edilib.

Həmçinin "Milli dadlar" elektron qastronomiya portalının təkmilləşdirilməsi çərçivəsində Azərbaycanın milli mətbəx irsinin elektron portalda toplanılması və sistemləşdirilməsi, portalda olan məlumatların beynəlxalq axtarış və süni intellekt sistemlərinə inteqrasiyası, portalın beynəlxalq və yerli arenada təbliğ edilməsi planlaşdırılır və Azərbaycan Milli Elmlər Akademiyası bu tədbirin iştirakçı qurumlarından biri kimi müəyyən olunub.

Bundan əlavə, Dövlət Proqramında tədqiqat layihələrinin dəstəklənməsi mexanizminin tətbiqi üzrə analitik məhsulların və tədqiqatların istiqamətlərinin müəyyən edilməsi, tədqiqatların təşviqi mexanizminə dair təkliflərin hazırlanması, təşviq mexanizminin tətbiqi yolu ilə analitik məhsulun hazırlanması, tədqiqatın aparılması və dəstəklənməsi də nəzərdə tutulub və AMEA bu tədbirin də iştirakçı qurumlarından biri kimi müəyyənləşdirilib.

Dövlət Proqramının qəbulunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahəyə verdiyi diqqətin, önəmin xüsusi bir ifadəsi olduğunu deyən akademik İsa Həbibbəyli həmçinin bildirib ki, Azərbaycanda turizm sahəsinin, sosial-mədəni sahənin vacib sahələrindən biri kimi inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xüsusi rolu qeyd olunmalıdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Dövlət Turizm Agentliyi ilə geniş əməkdaşlıq əlaqələri olduğunu deyən akademik İsa Həbibbəyli birgə hazırlanmış "Milli dadlar" layihəsinin və eyniadlı onlayn platformanın ilk təqdimat mərasiminin ötən il Rəyasət Heyətində keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, mədəniyyətimizin ayrılmaz hissəsi olan zəngin milli mətbəx irsimizin qorunması, sistemli şəkildə öyrənilməsi, dünyaya təbliği və gələcək nəsillərə ötürülməsi xüsusi əhəmiyyət daşıyır və bununla bağlı AMEA-nın Tarix və Etnologiya, həmçinin Folklor institutlarında mühüm tədqiqatlar aparılır.

Akademik İsa Həbibbəyli maddi-mədəni irsimizin qorunması, yeni turizm marşrutlarının müəyyən edilməsi məqsədilə Azərbaycan Milli Elmlər Akademiyası ilə Dövlət Turizm Agentliyi arasında arxeoloji qazıntılara dair birgə əməkdaşlıq əlaqələrinin mövcud olduğunu və bu istiqamətdə tədqiqatların ildən-ilə genişləndiyini söyləyib.

"Hesab edirəm ki, Dövlət Turizm Agentliyi ilə bir yerdə cənab Prezidentin təsdiq elədiyi Dövlət Proqramının icraçısı olmaq həm bizim akademik borcumuzdur, vəzifəmizdir, həm də bizim üçün şərəfdir. Eyni zamanda bu bizim Turizm Agentliyi ilə indiyə qədər olan əlaqələrimizi daha da genişləndirməyə kömək edəcək. Biz ölkəmizdə turizmin inkişafına elmin dəstəyini təmin edəcəyik. İnanıram ki, bizim birgə fəaliyyətimiz həm Dövlət Turizm Agentliyi üçün, həm də ölkəmizdə arxeologiyanın, mətbəx mədəniyyətinin, folklorun, tarixin öyrənilib inkişaf etməsinə, qarşılıqlı əməkdaşlığa öz töhfəsini verəcəkdir", - deyə akademik İsa Həbibbəyli vurğulayıb.

Dövlət Turizm Agentliyinin aparat rəhbəri Kənan Əliyev isə çıxışında qeyd edib ki, Azərbaycan Milli Elmlər Akademiyası ilə bu günə qədər müxtəlif istiqamətlərdə birgə fəaliyyətlər icra olunub və alimlərimizin akademik rəyi, elmi araşdırmaların gücü həmişə öz sözünü deyib. O bildirib ki, Dövlət Proqramı çərçivəsində Dövlət Turizm Agentliyi ilə Akademiya 3 əsas istiqamət üzrə çalışacaqdır.

İclasda AMEA-nın elmi müəssisə və təşkilatlarının təklifləri əsasında AMEA-nın Tədbirlər planının hazırlanması qərara alınıb və müvafiq tapşırıqlar verilib.

Daha sonra iclasda Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan dövlətinin beynəlxalq imicinə, tarixinə və mədəniyyətinə qarşı aparılan mənfi təbliğatın qarşısının alınması və neytrallaşdırılmasına dair Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 31 iyul 2026-cı il tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr haqqında müzakirələr aparılıb.

Akademik İsa Həbibbəyli bildirib ki, Fəaliyyət Planında Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan mədəni irsinin xarici ölkələrdə araşdırılması və müasir rəqəmsal texnologiyaların tətbiqi ilə sistemləşdirilməsi, diplomatik kommunikasiya materiallarının elmi təminatı, Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı yanlış məlumatların düzəldilməsi, eləcə də xarici tədqiqatçılar tərəfindən Azərbaycanşünaslıq istiqamətində elmi araşdırmaların təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsində iştirakı nəzərdə tutulub. Azərbaycan Milli Elmlər Akademiyası Fəaliyyət Planının bir sıra bəndləri üzrə iştirakçı qurumlardan biri kimi müəyyən edilib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, müxtəlif dövrlərdə beynəlxalq müstəvidə mədəniyyətimizə, musiqimizə, milli mətbəximizə sahib çıxılmağa çalışılıb və hər zaman Akademiya, alimlərimiz onlara tutarlı cavab verib.

AMEA rəhbəri sözügedən sənədin vacibliyinə diqqət çəkib, Akademiyanın elmi müəssisə və təşkilatlarının rəhbərlərinə görüləcək işlərə dair konkret təkliflərini Rəyasət Heyətinə təqdim etmələrini tapşırıb.

Daha sonra AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Bolqarıstan Respublikasına səfərinin yekunları haqqında məlumat verib. AMEA rəhbəri qeyd edib ki, Azərbaycan və Bolqarıstan Elmlər Akademiyaları arasında elmi əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və birgə elmi tədqiqatların həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirəsi məqsədilə Bolqarıstana səfəri çərçivəsində Bolqarıstan EA-nın prezidenti müxbir üzv Evelina Slavçeva və həmin akademik qurumun Rəyasət Heyətinin üzvləri ilə görüşüb. Görüşdə memarlıq, arxeologiya, etnologiya, folklor, incəsənət tarixi və digər humanitar sahələrdə birgə işlərin həyata keçirilməsinin zəruriliyi vurğulanıb.

Səfər zamanı Azərbaycan və Bolqarıstan Elmlər Akademiyalarının ortaq layihəsi kimi AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Folklor İnstitutu və Şəki Regional Elmi Mərkəzi tərəfindən hazırlanmış "Qabrovo yumoru və Şəki gülüşü" kitabı Bolqarıstan EA Rəyasət Heyətinin üzvlərinə, eləcə də Ədəbi Tədqiqatlar İnstitutuna və Etnologiya və Folklor İnstitutuna təqdim olunub.

AMEA Rəyasət Heyəti tərəfindən qeyd olunan məsələ ilə bağlı müvafiq tapşırıqlar verilib.

İclasda müzakirə edilən növbəti məsələ AMEA-nın elmi müəssisə və təşkilatlarının, regional elmi bölmə və mərkəzlərinin 2026-cı ilin birinci yarısı üzrə elmi və elmi-təşkilati fəaliyyətinə dair yarımillik hesabatların nəticələri haqqında olub. Akademik İsa Həbibbəyli bildirib ki, 10 iyun - 3 iyul 2026-cı il tarixlərində AMEA-nın elmi müəssisə və təşkilatlarında, regional elmi bölmə və mərkəzlərdə 2026-cı ilin birinci yarısında aparılmış elmi-tədqiqat işlərinin, həmçinin elmi-təşkilati fəaliyyətin yekunlarına dair yarımillik hesabatların müzakirəsi keçirilib. Elmi müəssisə və təşkilatların hesabat iclaslarında AMEA Rəyasət Heyəti aparatının məsul əməkdaşları da iştirak ediblər. Hesabat iclaslarının nəticələrinə dair AMEA-nın müvafiq elmi bölmələrində müzakirələr aparılıb, qərarlar qəbul olunub, növbəti yarımillik fəaliyyət üçün elmi müəssisə və təşkilatlara tövsiyə və tapşırıqlar verilib.

Daha sonra AMEA-nın Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri AMEA-nın 2026-cı ilin birinci yarısı üzrə elmi və elmi-təşkilati fəaliyyətinin nəticələrinə dair "İslahatların keyfiyyət dəyişikliklərinə keçidi: institusional yenilənmə, elmi məzmun, beynəlxalq görünürlük" mövzusunda hesabatı təqdim edib.

O qeyd edib ki, 2026-cı ilin birinci yarısının nəticələrində əsas diqqət ayrı-ayrı kəmiyyət göstəricilərinin mexaniki artımına deyil, AMEA-da aparılan islahatların elmi fəaliyyətin məzmununda yaratdığı keyfiyyət dəyişikliklərinə yönəldilmişdir. Sərxan Xavəri diqqətə çatdırıb ki, hesabat dövründə 1011 məqalə (367-si xaricdə), 594 tezis, konfrans materialı, 107 kitab, 73 monoqrafiya çap olunub, 90 beynəlxalq tədbir keçirilib. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 2026-cı ilin ilk altı ayında "Web of Science" və "Scopus" bazalarında indekslənən məqalələrin sayı artaraq 47-yə yüksəlib.

Müəssisələr üzrə statistik göstəriciləri təqdim edən filologiya elmləri doktoru Sərxan Xavəri bildirib ki, elmi müəssisələrin fəaliyyət profilləri əhəmiyyətli dərəcədə fərqlənir - bir müəssisə monoqrafik tədqiqatlarda, digəri məqalə nəşrində, başqa biri beynəlxalq indeksli nəşrlərdə, digəri isə elmi kadr hazırlığında daha yüksək fəallıq göstərir. Onun sözlərinə görə, elmi fəaliyyətin qiymətləndirilməsində kəmiyyət göstəricilərindən keyfiyyət, beynəlxalq görünürlük və elmi təsir göstəricilərinə keçidin gücləndirilməsi zəruridir.

Şöbə müdiri vurğulayıb ki, 2026-cı ilin birinci yarısının nəticələri AMEA-da son illərdə həyata keçirilən islahatların elmi fəaliyyətin strukturunda və məzmununda tədricən keyfiyyət dəyişiklikləri yaratdığını göstərir. AMEA-nın 4 illik fəaliyyəti nəticəsində cəmiyyətdə humanitar diskurs mühüm paradiqmalardan birinə çevrilib, dövlət siyasətinin formalaşmasında və ideoloji diskursun normativləşməsində mühüm rola malik olub.

Alim, həmçinin çıxışında WoS/Scopus nəşrlərinin genişləndirilməsi, beynəlxalq elmi görünürlüyün artırılması, elmmetrik qiymətləndirmənin gücləndirilməsi, uğurlu təcrübənin öyrənilməsi və zəif göstəricilərin ayrıca təhlili kimi təkliflərini səsləndirib.

Rəyasət Heyətinin qərarı ilə AMEA-nın elmi müəssisə və təşkilatlarında, regional elmi bölmə və mərkəzlərində 2026-cı ilin birinci yarısı üzrə elmi və elmi-təşkilati fəaliyyətə dair hesabatların nəticələri təsdiq olunub və müvafiq tapşırıqlar verilib.

İclasda, o cümlədən AMEA əməkdaşlarına 2026-cı ilin birinci yarısı üzrə impakt faktorlu jurnallarda nəşr olunan məqalələrə görə mükafatların verilməsi məsələsinə baxılıb.

Akademik İsa Həbibbəyli bildirib ki, son illərdə AMEA-da çalışan alim və mütəxəssislərin beynəlxalq elmmetrik bazalarda indekslənən, yüksək reytinqli elmi jurnallarda nəşr fəallığının artırılmasını stimullaşdırmağa hesablanmış məqsədyönlü fəaliyyət nəticəsində impakt faktorlu ("Web of Science" və "Scopus") jurnallarda çap olunan məqalələrin sayı ötən illərlə müqayisədə kəskin artıb. AMEA rəhbəri mükafatlandırma mexanizminin bu prosesdə alimləri stimullaşdırmaqla yanaşı, onları qlobal elmi informasiya resurslarına və elektron elmmetrik bazalara çıxışa təşviq etdiyini bildirib.

Daha sonra AMEA-nın Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri "AMEA əməkdaşlarının 2026-cı ilin birinci yarısında "Web of Science" və "Scopus" bazalarında indekslənən elmi nəşrlərinin vəziyyəti və əsas tendensiyalar" mövzusunda məruzəsini təqdim edib. Məruzəçi bildirib ki, 2024-cü ildən start götürən institusional reformalar və tətbiq edilən stimullaşdırma mexanizmləri artıq ölçülə bilən mühüm elmi nəticələrə gətirib çıxarıb.

Sərxan Xavəri vurğulayıb ki, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 2026-cı ilin ilk altı ayında beynəlxalq bazalarda indekslənən elmi işlərin sayında kəskin artım müşahidə olunub. Bu artım yalnız kəmiyyət göstəricisi olmayıb, prosesin institusional miqyasda genişlənməsinin bariz nümunəsidir. Belə ki, beynəlxalq bazalarda təmsil olunan AMEA strukturlarının sayı iki dəfə artıb.

Sərxan Xavəri çıxışının sonunda qeyd edib ki, əldə olunan nəticələr son məqsəd deyil, yeni keyfiyyət mərhələsinin başlanğıcıdır. Qarşıda duran əsas strateji vəzifələr nəşr fəallığının bütün AMEA strukturları üzrə balanslaşdırılması, kvartil və istinad göstəricilərinin yüksəldilməsi, eləcə də beynəlxalq elmi təsirin daha da gücləndirilməsindən ibarətdir.

Rəyasət Heyəti tərəfindən AMEA-nın elmi müəssisə və təşkilatlarının əməkdaşlarının 2026-cı ilin birinci yarısı üzrə "Web of Science" və "Scopus" bazasında indekslənən jurnallarında dərc olunmuş məqalələrinin siyahısı təsdiq edilib və onların hər birinin mükafatlandırılması qərara alınıb.

*(davamı 3-cü səhifədə)*

# AMEA-da keçirilən islahatlar elmi fəaliyyətin strukturunda və məzmununda keyfiyyət dəyişiklikləri yaradıb

*(əvvəli 2-ci səhifə)*

İclasda, o cümlədən AMEA-nın Gəncə Bölməsinin fəaliyyətinin optimallaşdırılması haqqında məsələyə də baxılıb. Bölmənin tərkibindəki Humanitar Tədqiqatlar İnstitutu ilə Diyarşünaslıq İnstitutunun birləşdirilərək daxili imkanlar və mövcud ştat vahidləri hesabına Humanitar Elmlər və Diyarşünaslıq İnstitutunun yaradılması məqsədəuyğun hesab edilib.

Rəyasət Heyəti tərəfindən sözügedən məsələ ilə bağlı müvafiq qərar verilib.

İclasda müzakirə edilən növbəti məsələ AMEA-nın gənc alimlərinin ilk dəfə respublika konfransının keçirilməsi haqqında olub. Akademik İsa Həbibbəyli bildirib ki, AMEA-nın elmi müəssisə və təşkilatlarında çalışan gənc alim və mütəxəssislərin əldə etdikləri elmi nəticələrin ümumiləşdirilməsi və elmi ictimaiyyətə təqdim olunması, müxtəlif elm sahələrində fəaliyyət göstərən gənc tədqiqatçılar arasında elmi kommunikasiyanın genişləndirilməsi, multidissiplinar əməkdaşlıq imkanlarının yaradılması, perspektivli tədqiqat istiqamətlərinin və yeni elmi təşəbbüslərin müəyyənləşdirilməsi, gənc alimlərin müasir elmi çağırışlara münasibətinin öyrənilməsi baxımından onların vahid elmi platformada bir araya gətirilməsinə ehtiyac vardır.

Akademik İsa Həbibbəyli ilk dəfə keçiriləcək konfransın gənc alimlərin elmi yaradıcılığının stimullaşdırılması, onların əldə etdikləri mühüm nəticələrin elmi ictimaiyyətə təqdim edilməsi, elmi fikir və təcrübə mübadiləsinin genişləndirilməsi, yeni elmi əməkdaşlıqların formalaşdırılması və AMEA-da həyata keçirilən yeniləşmə prosesində elmi gəncliyin rolunun daha da artırılması məqsədi daşıyır.

İclasda konfransın dekabr ayında keçirilməsi qərara alınıb və Təşkilat komitəsi yaradılıb.

Həmçinin iclasda AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin və AMEA Rəyasət Heyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanda seysmoloji elmin inkişafı: proqnozlaşdırmadan akademik tədqiqatlaradək" respublika elmi konfransının keçirilməsi məsələsinə də baxılıb.

Məsələ ilə bağlı məlumat verən Seysmoloji Xidmət Mərkəzinin baş direktoru AMEA-nın müxbir üzvü Qurban Yetirmişli elmi konfransın əsas məqsədinin Azərbaycanda aparılan müasir seysmoloji tədqiqatların nəticələrini elmi ictimaiyyətə təqdim etmək, müsair və aktual tədqiqat istiqamətlərini müəyyənləşdirmək, müxtəlif elm sahələri arasında fənlərarası tədqiqatların genişləndirilməsinə təkan vermək olduğunu bildirib.

AMEA Rəyasət Heyəti tərəfindən 20 oktyabr 2026-cı il tarixində sözügedən konfransın keçirilməsi qərara alınıb.

İclasda, həmçinin AMEA-nın Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsində daxili imkanlar və mövcud ştat vahidləri hesabına Sosial media sektorunun yaradılması, AMEA-nın Rəyasət Heyəti aparatının Elmi irs şöbəsinin Rəqəmsal arxiv sektorunun adının dəyişdirilərək Rəqəmsal arxiv və bərpa sektoru adlandırılması, AMEA-nın Rəyasət Heyəti aparatının Elmin populyarlaşdırılması şöbəsinin Əsasnaməsinin təsdiq edilməsi haqqında qərarlar qəbul olunub.

Daha sonra iclasda bir sıra kadr məsələlərinə baxılıb. Filologiya elmləri doktoru Abid Tahirlinin AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan mühacirət ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru Məmməd Əliyevin Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Zakirə Əliyevanın Ədəbiyyat İnstitutunun Rəqəmsal ədəbiyyatşünaslıq və süni intellekt şöbəsinin müdiri, filologiya elmləri doktoru Nərgiz Hacıyevanın AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili və nitq mədəniyyəti şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elçin İsmayılovun Dilçilik İnstitutunun Onomastika şöbəsinin müdiri, Vəfa Atayevanın AMEA-nın Şəki Regional Elmi Mərkəzinin elmi işlər və rəqəmsal inkişaf üzrə direktor müavini, Ayşən Salmanovanın isə Şəki Regional Elmi Mərkəzinin elmi katibi vəzifəsinə təsdiq edilməsi haqqında qərarlar qəbul olunub.

Rəyasət Heyətinin iclasında, o cümlədən AMEA-nın müxbir üzvü Misir Mərdanovun 80, AMEA-nın müxbir üzvü Əsgər Abdullayevin isə 100 illiyi haqqında qərarlar qəbul edilib.

İclasda qeyd olunan məsələlər ətrafında akademik Rasim Əliquliyev, akademik Arif Həşimov, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, tarix elmləri doktoru Zemfira Hacıyeva, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev, filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin İsmayılov və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

# Görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsi yad edilib

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi sentyabrın 19-da XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.**



Anım mərasimində çıxış edən akademik İsa Həbibbəyli Azərbaycan şərqşünaslığında ərəbşünaslıq sahəsinin çox inkişaf etdiyini bildirərək, bu sahədə ədəbiyyatşünaslığın əsasının görkəmli şərqşünas alim, professor Aida İmanquliyeva tərəfindən qoyulduğunu deyib. Akademik İsa Həbibbəyli bu sahənin inkişafında Aida xanımın xidmətlərinin əvəzsiz olduğunu, onun Azərbaycan ərəbşünaslığında bir məktəb yaratdığını, mühacirət ədəbiyyatının tədqiqində yeni bir yol açdığını qeyd edib. AMEA rəhbəri bu gün Aida İmanquliyeva məktəbinin davamçılarının bu yolu davam etdirdiyini, Şərqşünaslıq İnstitutunda, Ədəbiyyat İnstitutunda, eləcə də ölkəmizin digər elm və təhsil müəssisələrində ərəb məhcər ədəbiyyatına dair tədqiqatlar aparıldığını, dissertasiyalar, məqalələr yazıldığını, kitablar nəşr edildiyini vurğulayıb.

AMEA-nın vitse-prezidenti v.i.e., akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva 34 il öncə sentyabrın 19-da dünyasını dəyişmiş görkəmli alim Aida İmanquliyevanın Azərbaycan Şərqşünaslıq elminin inkişafında silinməz izlər qoyduğunu, dəyərli əsərləri ilə dünya ərəbşünaslığına böyük töhfələr verdiyini söyləyib. O, Aida İmanquliyavanın ərəb-Qərb ədəbiyyatlarının qarşılıqlı əlaqələrini və təsirini öyrənən ilk alimimiz olduğunu qeyd edib. Akademik G.Baxşəliyeva Aida İmanquliyevanın Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı elm təşkilatçısı kimi də özünü göstərdiyini bildirib. G.Baxşəliyeva Aida İmanquliyevanın itkisinin şərqşünaslarımız üçün çox ağır olduğunu, alimlərimizin onun əziz xatirəsini daim uca tutduqlarını deyib.

Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü, Yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Mehdi Kazımov və başqaları Aida İmanquliyevanın dəyərli elmi fəaliyyətindən bəhs edib, onun gənc şərqşünaslara göstərdiyi qayğıdan danışıblar.

# Çin Sosial Elmlər Akademiyasının nümayəndə heyəti ilə görüş

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizdə səfərdə olan Çin Sosial Elmlər Akademiyasının nümayəndə heyəti ilə görüşüb.**



AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə çıxış edən akademik İsa Həbibbəyli son illərdə Azərbaycanla Çin arasında əməkdaşlıq əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, bütün sahələrdə olduğu kimi, elm istiqamətində də münasibətlərin sürətlə inkişaf etdiyini söyləyib. Akademik İsa Həbibbəyli qeyd edib ki, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti, həmçinin Akademiyanın elmi-tədqiqat müəssisələri Çinin bir sıra elmi qurumları və ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir.

AMEA rəhbəri diqqətə çatdırıb ki, Çin Sosial Elmlər Akademiyası ilə 2012-ci ildə imzalanmış əməkdaşlıq haqqında memorandumun bəndləri artıq icra olunub və qurumlarımız arasında ikili əlaqələrimizdə yeni istiqamətlər meydana çıxıb. Akademik İsa Həbibbəyli bildirib ki, AMEA ilə Çin Sosial Elmlər Akademiyası arasında əməkdaşlıq memorandumunun müasir dövrün çağırışları əsasında yenilənməsi zərurəti meydana çıxıb. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Tədqiqatları Mərkəzinin fəaliyyət göstərdiyini, "Azərbaycan ədəbiyyatında Çin mənşəli arxetip və obrazlar" mövzusunda dissertasiya işi müdafiə edildiyini deyən akademik İsa Həbibbəyli vurğulayıb ki, bu gün Ədəbiyyat İnstitutunda Çin şair və yazıçılarının sovet dövründən indiyədək Azərbaycan haqqında yazdıqları əsərləri toplanılıb və artıq çap ərəfəsindədir.

Görüşdə çıxış edən Çin Sosial Elmlər Akademiyasının Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun Şanxay Əməkdaşlıq Təşkilatı üzrə Tədqiqat Mərkəzinin baş katibinin müavini Yang Jin də Azərbaycan-Çin əməkdaşlığının sürətlə inkişaf etdiyini diqqətə çatdırıb, elm sahəsində birgə əməkdaşlıq üzrə mühüm elmi nəticələrin əldə olunduğunu deyib. O, 2012-ci ildə ilk dəfə Azərbaycana gəldiyini, həmin vaxtdan indiyədək xeyli inkişafın şahidi olduğunu vurğulayaraq ölkəmizlə bağlı geniş həcmli kitab yazdığını diqqətə çatdırıb, burada elmi əlaqələrə də yer verdiyini deyib. Yang Jin AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin təkliflərini Çin Sosial Elmlər Akademiyasının prezidentinə çatdıracağını bildirib.

Görüş zamanı ikitərəfli elmi əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Sonda qarşılıqlı olaraq kitab və xatirə hədiyyələri təqdim edilib.

Görüşdə Çin Sosial Elmlər Akademiyasının Universitetinin magistrantları Zhou Luping və Lin Hexi də iştirak ediblər.

# Bütün strateji hədəflər reallığa çevrilir

**Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının XII konfransı keçirilib.**



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev hesabat məruzəsi ilə çıxış edib. Hesabat dövründə YAP Yasamal rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatları ilə qarşılıqlı əməkdaşlığın və koordinasiyanın gücləndirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Yasamal Rayon İcra Hakimiyyətin başçısı Elşad Həsənov partiyanın ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edərək xalqa layiqli xidmət nümunəsi yaratdığını deyib. O qeyd edib ki, Azərbaycan xalqı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşərək həyata keçirilən siyasəti dəstəkləyir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli vurğulayıb ki, müstəqil Azərbaycan dövləti mühüm siyasi-ideoloji və iqtisadi-mədəni təməllər üzərində inkişaf edərək yeni hədəflərə doğru inamla irəliləyir. Sarsılmaz təməllərə söykənən xalq-iqtidar birliyi davamlı uğurların əsasıdır.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova vurğulayıb ki, ardıcıl nailiyyətlər qazanan müasir Azərbaycanın inkişafı davamlı, dinamik və hərtərəfli xarakter alıb. O əminlikdə qeyd edib ki, Azərbaycan Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə yeni möhtəşəm uğurlar qazanacaq, öz qüdrətini daha da artıracaq.

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti ölkənin iqtisadi potensialının, siyasi nüfuzunun artmasını, beynəlxalq mövqeyinin möhkəmlənməsini, milli həmrəyliyin güclənməsini təmin edir.

"H.Cavid pr.33a" ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini, Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Nurlan Mustafayevin anası Rahilə Ramazanova, Milli Məclisin VI çağırış deputatı Elnur Allahverdiyev, "Z.Xəlilov küç.33" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Zahid Cəfərov Azərbaycanın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və yeni reallıqlardan irəli gələn hədəflərin reallaşdırılmasının ölkəmizi yeni zirvələrə yüksəldəcəyini qeyd ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyasının ümummilli mənafeləri rəhbər tutaraq ölkədə ictimai-siyasi sabitliyin təminatçısı və dayanıqlı inkişafın aparıcı qüvvəsi kimi çıxış etdiyini deyib.

Konfransda YAP Yasamal rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Gəncəsər monastırı ilə əlaqədar Ermənistanda yaradılan qalmaqala dair bəyanat

**Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşları Gəncəsər monastırı ilə əlaqədar Ermənistanda yaradılan qalmaqala dair bəyanat yayıblar.**

*Bəyanatı təqdim edirik:*

"Son günlərdə Ermənistanda Azərbaycanın Qarabağ ərazisində olan Qafqaz Albaniyası abidələri, xüsusilə də Gəncəsər monastırı ətrafında süni şəkildə yaradılan məqsədyönlü hay-küy tarixi elmi reallıqlarla heç bir əlaqəsi olmayan ucuz və mənasız sensasiya yaratmaq cəhdindən ibarətdir. Əslində isə Gəncəsər monastır kompleksi və onun mühüm tərkib hissəsi olan Gəncəsər monastırı erməni tarixi ilə heç bir əlaqəsi olmayan, Qafqaz Albaniyasına məxsus tarixi abidədir. Bu abidənin Albaniyaya və onun yerli əhalisinə - albanlara məxsus olması təkzibedilməz tarixi-arxeoloji faktlar ilə çoxdan sübuta yetirilib. Bunu təsdiqləyən ən önəmli faktlardan biri Gəncəsər monastırının ermənilərə heç bir aidiyyəti olmayan Qafqaz Albaniyasının tarixi coğrafi ərazisində inşa edilməsidir. Həmin ərazi Qafqaz Albaniyasının dövlətinin əsas vilayətlərindən biri olub, onun tərkibində tarixi inkişaf yolu keçmişdir. Ərəb xilafəti süquta uğradıqdan sonra burada Alban çarlığının hakimiyyəti qismən bərpa olunmuşdur. XII-XIII əsrlərdə bu ərazidə Alban-Xaçın knyazlığı yüksəlmişdir. Bu knyazlığın hökmdarı Azərbaycanın görkəmli dövlət xadimlərindən olan Həsən Cəlal (1215-1261) olmuşdur. Həsən Cəlal və onun həyat yoldaşı əsli etibarilə məşhur Alban sülaləsi Mehranilər şəcərəsinə mənsubdur. Çar, yaxud mütləq hakim titulu daşıyan Həsən Cəlal dövrün mənbələrində "knyazlar knyazı", "Xaçın ölkəsinin knyazı", "Albaniyanın çarı" və s. kimi titullar ilə adlandırılırdı.

Həsən Cəlalın dövründə Azərbaycanın bu tarixi torpaqlarında iqtisadi, siyasi və mədəni tərəqqi baş vermiş, onun dövrü Alban renessansı kimi xarakterizə olunmuşdur. Gəncəsər monastırı da bu renessansın möhtəşəm nümunəsi kimi inşa edilmişdir.

Gəncəsər monastırında albanlara məxsus bərabərtərəfli xaç işarəsindən istifadə olunmuşdur. Bərabərtərəfli xaç işarəsi albanların möhürü funksiyasını yerinə yetirmişdir. Monastır regionun yerli inşaat materialları ilə tikilmişdir.

Bundan başqa, Qarabağ ərazisindəki əksər abidələrdəki və Gəncəsər monastırındakı epiqrafik yazılar albanlara məxsus olan mətnlərdən ibarətdir. Bu epiqrafik yazılar Gəncəsər monastırının daş kitabəsidir. 1919-cu ildə Petroqradda Gəncəsər monastırının epiqrafik mətnləri haqqında nəşr olunan və elə həmin dövrdə ermənilər tərəfindən məqsədyönlü şəkildə məhv edilən Gəncəsər yazılarına dair kitabda da bu abidələrin albanlara məxsus olduğu təsdiqini tapmışdır. Monastırın üzərindəki freskalar (divar rəsmləri) da bu abidənin alban irsinə aid olduğunu bir daha əyani şəkildə sübut edir.

Ermənilər hələ sovet hökuməti dövründə, sonra isə işğal prosesi zamanında Gəncəsər monastırının erməniləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirmişlər. Belə ki, monastırın alban epiqrafik abidələri məhv edilmiş, yaxud sökülərək Ermənistana aparılmış və təhrif edilmiş erməni mətnləri ilə əvəzlənmişdir. Eyni zamanda, Gəncəsər monastırı üzərində olan bərabərtərəfli alban xaçı fərqli formaya malik olan qriqorian xaç işarəsi şəklinə salınmışdır. Monastırın içərisindəki alban katolikoslarına məxsus məzarlara da müdaxilə edilmiş, qəbirlərin ilkin quruluşu dəyişdirilmişdir. Həmçinin işğal dövründə ermənilər bərpa adı ilə Gəncəsər monastırında Ermənistandan gətirilmiş inşaat materiallarından istifadə etməklə abidənin orijinal görkəminə xələl gətirmişlər.

Qafqaz Albaniyası abidələri, o cümlədən Gəncəsər monastırı ilə bağlı elmi və tarixi reallıqlar bunlardan ibarət olduğu halda, Azərbaycanda fəaliyyət göstərən diplomatların işğaldan azad edilmiş ərazilərə səfəri zamanı ermənilər tərəfindən edilmiş təhriflərin müşahidə olunmasının Ermənistanda narazılıqlar yaratması əsl həqiqətin ört-basdır edilməsindən başqa bir şey deyildir.

Hesab edirik ki, Gəncəsər monastırı ətrafında Ermənistan tərəfindən qaldırılan qalmaqalın heç bir elmi-tarixi əsası yoxdur və hazırda Azərbaycan dövlətinin meydana qoyduğu sülh gündəliyinə zərbə vurmaq məqsədi daşıyır. Bu təxribat faktı Ermənistanda uzun illərdən bəri Azərbaycanın milli-mənəvi dəyərlərinə, mətbəx nümunələrinə sahib çıxmaq, abidələrimizi süni şəkildə özününküləşdirmək siyasətinin davamından ibarətdir. Bu onu göstərir ki, Ermənistanda uydurma "böyük Ermənistan" xülyasından əl çəkməyən qüvvələr hazırda öz ölkələrində reallıqlara doğru atılmaqda olan addımları da pozmaq niyyətlərini həyata keçirirlər.

Azərbaycan alimləri Gəncəsər monastırı ətrafında Ermənistanda məqsədyönlü olaraq qızışdırılan kampaniyanı qətiyyətlə pisləyir və erməni tərəfini süni və yalan təbliğata deyil, elmi həqiqətlərə obyektiv yanaşmağa çağırır.

*İsa Həbibbəyli, AMEA -nın prezidenti, akademik*
*Gövhər Baxşəliyeva, AMEA-nın vitse-prezidenti, akademik*
*İsmayıl Hacıyev, AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik*
*Teymur Kərimli, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik*
*Nərgiz Axundova, akademik*
*Ərtegin Salamzadə, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü*
*Hacıfəxrəddin Səfərli, AMEA-nın müxbir üzvü*
*Könül Bünyadzadə, AMEA-nın müxbir üzvü*
*Vəli Baxşəliyev, AMEA-nın müxbir üzvü*
*Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü*
*Kərim Şükürov, AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor*
*İlham Məmmədzadə, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor*
*Fərhad Quliyev, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent*
*Kübra Əliyeva, sənətşünaslıq doktoru, professor*
*Qafar Cəbiyev, tarix elmləri doktoru, professor*
*Əliağa Məmmədli, antropologiya elmləri doktoru, professor*
*Allahverdi Əlimirzəyev, tarix elmləri doktoru, dosent*
*Ramil Ağayev, tarix elmləri doktoru, dosent*
*Rahibə Əliyeva, memarlıq doktoru*
*Natiq Alışov, tarix üzrə fəlsəfə doktoru, dosent*
*Təvəkkül Əliyev, tarix üzrə fəlsəfə doktoru, dosent*
*Taleh Əliyev, tarix üzrə fəlsəfə doktoru, dosent*
*Telman İbrahimov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*
*Ellada Bəkirova, tarix üzrə fəlsəfə doktoru, dosent*
*Vaqif Əsədov, tarix üzrə fəlsəfə doktoru, dosent*
*Ülviyyə Hacıyeva, tarix üzrə fəlsəfə doktoru*
*Gülanə Əliyeva, tarix üzrə fəlsəfə doktoru".*

# Azərbaycanın Qarabağ ərazisində Alban abidələri: tarixi reallıq və erməni saxtakarlığı





**Azərbaycan Milli Elmlər Akademiyasında "Azərbaycanın Qarabağ ərazisində Alban abidələri: tarixi reallıq və erməni saxtakarlığı" mövzusunda elmi konfrans keçirilib.**

Konfransı giriş nitqi ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli tədbirin əhəmiyyətini vurğulayıb.

Akademik qeyd edib ki, ermənilərin abidələr üzərindəki cızmaqara yazılarını qədim dövrlərə aid kimi qələmə vermək cəhdləri aydın şəkildə göstərir ki, onlar təkcə qədim tarixi deyil, yaxın keçmişi də saxtalaşdırmaq yolu tutublar: "Tarixi abidələrə süni şəkildə kobud müdaxilələr edilir, onların üzərinə yalançı kitabələr həkk olunur. Əsl tarixi kitabələr isə vaxtilə oğurlanaraq İrəvana aparılıb, dəyişdirilib və abidələrin həqiqi mətnləri təhrifə məruz qoyulub. Hətta son dövrlərdə də bu abidələri qəsdən zədələyərək guya erməni irsinə aid olması barədə yalan təsəvvür formalaşdırmağa çalışırlar. Bütün bunlar Qafqaz Albaniyası tarixinə yönəlmiş əsassız erməni iddialarının və tarixi saxtakarlığın növbəti bariz nümunəsidir".

Akademik İsa Həbibbəyli torpaqlarımız işğaldan azad edildikdən sonra AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu tərəfindən arxeoloji ekspedisiyaların təşkil olunduğunu, ərazidə genişmiqyaslı qazıntı işlərinə başlanıldığını, alimlərimiz müstəqillik dövrünün tələblərinə uyğun olaraq Alban abidələrini yenidən dərindən və elmi əsaslarla tədqiq etdiklərini bildirib: "Məhz bu elmi həqiqətlərin üzə çıxarılması Ermənistan tərəfini ciddi şəkildə narahat edir. Bu səbəbdən erməni saxtakarlığı yenidən fəallaşıb, son vaxtlar azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisindəki qədim Alban abidələrini özününküləşdirmək məqsədilə beynəlxalq ictimaiyyəti çaşdırmağa yönələn süni və əsassız iddialar irəli sürürlər".

Akademik bildirib ki, yaranmış vəziyyət alimlərimizin qarşısına mühüm və təxirəsalınmaz vəzifələr qoyur. Bu vəzifələr qaldırılan hər bir əsassız iddiaya operativ, qətiyyətli cavab vermək və Akademiyada Qafqaz Albaniyasına dair sistemli, fundamental tədqiqatları daha da dərinləşdirmək kimi məsələləri əhatə edir.

AMEA rəhbəri onu da bildirib ki, hazırda Akademiyanın həm Tarix və Etnologiya İnstitutunda, həm də Arxeologiya və Antropologiya İnstitutunda Qafqaz Albaniyası üzrə ixtisaslaşmış şöbələr fəaliyyət göstərir. Bununla yanaşı, bir müddət öncə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı, Tarix və Etnologiya İnstitutunun təşəbbüsü ilə qədim Alban dilinin tədrisi üzrə onlayn dərslər təşkil edilib. Bu cür təşəbbüslər yeni nəsillərə tarixi mədəniyyətimizin əsl köklərini dərindən öyrətmək və elmi həqiqətləri qorumaq baxımından xüsusi əhəmiyyət kəsb edir.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Ermənistan tərəfinin Azərbaycan ərazisində olan Qafqaz Albaniyası abidələrinə dair irəli sürdükləri iddiaları qətiyyətlə pisləyir və bu səsələnən fikirləri qeyri-elmi, tarixə əsaslanmayan fikirlər kimi rədd edirik.

Sonra Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev "Azərbaycanın Qarabağ-Zəngəzur abidələrinin ermənilər tərəfindən saxtalaşdırılması cəhdləri və tarixi reallıqlar" mövzusunda çıxış edib. Alim Qarabağ və Zəngəzur ərazilərindəki tarix-mədəniyyət abidələrinin tədqiqi zamanı əldə olunan arxeoloji materialların obyektiv şəkildə öyrənilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Fərhad Quliyev qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunmasından dərhal sonra ərazidə fəaliyyətə başlayan arxeoloji ekspedisiyalar ilkin nəticələrini və erməni işğalçılarının Azərbaycan abidələrinə münasibətdə törətdiyi cinayətlərin təsnifatını ictimaiyyətə təqdim ediblər.

Alim vurğulayıb ki, Azərbaycan arxeoloqları artıq Xocavənd, Kəlbəcər və Ağdərə rayonlarında geniş tədqiqatlara başlayıblar. Xüsusilə Xocavənd rayonunun Tuğ kəndində yerləşən Dövlət Tarix-Memarlıq Qoruğunda Alban knyazlarının saray kompleksində, həmçinin ərazidəki 2 və 3 nömrəli qədim Alban xristian abidələrində, Hadrut və Çanaqçı kəndlərində aparılan arxeoloji qazıntılar erməni yalanlarını elmi dəlillərlə ifşa etməyə imkan verir.

AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Atropatena-Albaniya (Qafqaz) tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Ramil Ağayev "Qafqaz Albaniyasının maddi-mədəni irsinə dair" mövzusunda təqdimatında Qafqaz Albaniyası dövlətinin xristianlıq irsi, Alban və erməni kilsələri arasındakı fundamental teoloji fərqlər, eləcə də erməni tarixçilərinin öz mənbələrində gizlədə bilmədikləri tarixi həqiqətlərə dair faktları diqqətə çatdırıb.

Məruzəçi bildirib ki, tarixi salnamələrdə, o cümlədən Musa Kalankatuklunun əsərində albanların xristianlığı ermənilərdən əsrlər öncə qəbul etdiyi faktlarla təsdiqlənir. Eyni zamanda kilsələrin etiqad baxımından tam fərqli cərəyanlara mənsub olduğu vurğulanır. Alim ermənilərin Qarabağ və Naxçıvan abidələrini təkcə yazı və əlifba vasitəsilə mənimsəmə cəhdlərinin beynəlxalq elmi prinsiplərə zidd olduğunu qeyd edib.

Daha sonra Tarix və Etnologiya İnstitutunun Azərbaycanın qədim dövr tarixi şöbəsinin müdiri Ramin Əlizadə "Müasir Ermənistanda kulturosid siyasəti və Qafqaz Albaniyası" adlı məruzəsində bildirib ki, Qafqaz Albaniyasının tədqiq edilməsində ən mühüm yanlışlıq bu dövlətin qədim tarixinin və mədəniyyətinin müasir sərhədlər kontekstində araşdırılmasıdır: "Bu yanaşma SSRİ dövründə erməni əsilli tədqiqatçıların albanşünaslığa vurduğu ən böyük zərbədir. Qədim tarixi müasir sərhədlər daxilində öyrənmək əslində onu təhrif etmək və saxtalaşdırmaq deməkdir. Halbuki həm arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş artefaktlar, yerüstü tarixi-mədəni və dini abidələr, həm də yazılı mənbələrdə əks olunmuş məlumatlar bu saxtakarlığı ifşa edir".

Alim bildirilib ki, Türkiyə Cümhuriyyətinin Van şəhəri yaxınlığında, qədim qaya üzərində 200-ə yaxın kitabə mövcuddur ki, səfərimiz zamanı bu kitabələrdə urartu dilində yazıların olduğunu gördük: "Qayaüstü yazının yerləşdiyi tarixi ərazidə vaxtilə İosif Orbeli və Nikolay Marrın ekspedisiyaları tərəfindən qeydiyyata alınan bu kitabələrin bəzilərini ermənilər sonradan qəsdən zədələyərək izləri itirməyə çalışıblar. Lakin mətnlərin foto-sənədləri və ilkin nəşrləri elmi dövriyyədə qorunub saxlanılır. Bu yazılarda Alban ölkəsi ilə yanaşı, Göyçə gölü hövzəsinə və Qarabağ bölgəsinə aid digər qədim ərazi adları paralel şəkildə sadalanır".

Tədbirdə Tarix və Etnologiya İnstitutunun Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Ramil Niftəliyev "Qafqaz Alban katolikoslarının Alban kilsələrinin qriqorianlaşdırılmasına qarşı mübarizəsi" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə Alban kilsəsinin tarixi inkişafı, Alban katolikoslarının fəaliyyəti və kilsələrin dini-mədəni kimliyinin qorunması istiqamətində aparılan mübarizə tarixinə diqqət çəkilib.

Ramil Niftəliyev qeyd edib ki, "Alban tarixi" salnaməsində yer alan erməni katolikosu Avraamın etirafına görə, Alban patriarx taxtı ermənilərinkindən qat-qat əzəlidir. Bundan əlavə, Alban katolikosluğunun ilkin dini mərkəzləri məhz Azərbaycanın tarixi şəhərləri olan Qəbələ və Çola (Dərbənd) şəhərlərində fəaliyyət göstərib.

Konfransda AMEA Memarlıq və İncəsənət İnstitutunun Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika şöbəsinin aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Telman İbrahimov "Qafqaz Albaniyasının mədəni inkişaf dövrləri" adlı təqdimatında Qafqaz Albaniyasının mədəni inkişafının müxtəlif mərhələlərinə toxunaraq, həmin dövrün memarlıq, təsviri və dekorativ-tətbiqi sənət nümunələrindən bəhs edib. Məruzəçi qeyd edib ki, Alban heykəltəraşlığı ibtidai dövr, antik dövr və erkən orta əsrlər mərhələlərini əhatə edir. Heykəllərin yaranış fəlsəfəsi animizm, totemizm, qoruyucu və simpatik (bənzərlik) magiya təsəvvürlərinə, erkən orta əsrlərdə isə xristianlıqla yanaşı birbaşa qədim türk dünyagörüşünə bağlıdır.

Alim təqdimatında Mingəçevirdən tapılmış e.ə. VII-VI əsrlər Skif dövrünə aid maral, bala və hücum edən qurd motivinin təxminən iki min il sonra eynilə XIII əsr Şirvan abidələrində də təkrarlandığını nümayiş etdirib. Bildirib ki, bu fakt dövrlərin və dinlərin dəyişməsinə baxmayaraq, Azərbaycan və Qafqaz Albaniyası incəsənətindəki bədii ideyaların köklü və qırılmaz vəhdət təşkil etdiyini təkzibolunmaz şəkildə sübut edir.

Konfransın yekununda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli elmi konfransın materiallarının nəşr edilməsi, Qafqaz Albaniyası irsinin fundamental əsaslarla tədqiqi və erməni saxtakarlıqlarına qarşı sistemli elmi mübarizənin təşkili məqsədilə Akademiyada kompleks Tədbirlər Planının hazırlanması barədə tapşırıq verib.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, hazırlanacaq sənəddə tədqiqatların müasir dünya elminin tələbləri səviyyəsində qurulması üçün arxeoloji ekspedisiyaların maddi-texniki təchizatının təmin edilməsi məsələsi xüsusi yer almalıdır. Bununla yanaşı, tədqiqatların nəticələrini əks etdirən fundamental elmi əsərlərin nəşrlərinin hazırlanması, bu həqiqətlərin beynəlxalq nüfuzlu jurnallarda dərci və geniş yayılması tədbirlər planının əsas prioritetləri kimi müəyyənləşdiriləlidir.

# Cənubi Qafqazın yeni geosiyasi reallıqları və Azərbaycanın regional enerji strategiyası

## *AMEA -da beynəlxalq elmi konfrans*

**AMEA Mərkəzi Elmi Kitabxanasında Fəlsəfə və Sosiologiya İnstitutu və bu institutun Enerji təhlükəsizliyi siyasəti və Gürcüstanşünaslıq şöbəsinin təşkilatçılığı ilə "Əsrin müqaviləsi"nin və "Yeni əsrin müqaviləsi"nin ildönümünə həsr olunmuş "Cənubi Qafqazın yeni geosiyasi reallıqları və Azərbaycanın regional enerji strategiyası" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**







Açılış mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətinin bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdıran AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizin enerji təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Akademik İsa Həbibbəyli Naxçıvanın elektrik şəbəkəsinin Türkiyə ilə əlaqələndirilməsinin muxtar respublikanın ən çətin dövrlərində mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Türkiyə Cümhuriyyətinin həmin dövrdə Naxçıvana elektrik enerjisinin çatdırılması ilə bağlı bütün zəruri addımları operativ şəkildə atdığını qeyd edən alim sonrakı dövrdə həyata keçirilən mühüm tədbirlər nəticəsində Naxçıvanda enerji təminatı ilə bağlı məsələlərin öz həllini tapdığını və muxtar respublikanın qısa müddətdə elektrik enerjisi ixrac edən bölgəyə çevrildiyini vurğulayıb.

AMEA rəhbəri 1994-cü ildən etibarən Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması üçün strateji əsasların yaradıldığını və bunun sonrakı illərdə mühüm nəticələr verdiyini bildirib. Qeyd edib ki, bu gün Azərbaycanın enerji siyasətində ənənəvi enerji ilə yanaşı, bərpa olunan enerji mənbələrinin inkişafına da xüsusi diqqət yetirilir. Müxtəlif bölgələrdə, o cümlədən Abşeronda külək və günəş enerjisi üzrə layihələr həyata keçirilir, müxtəlif ölkələrlə əməkdaşlıq çərçivəsində alternativ enerji mənbələri yaradılır.

AMEA prezidenti Azərbaycanın artıq yalnız ənənəvi enerji resurslarının deyil, həm də bərpa olunan enerji potensialının ixrac yönümlü inkişafına keçdiyini, ölkənin enerji, ərzaq və iqtisadi təhlükəsizliyinin dövlət müstəqilliyinin mühüm şərtlərindən olduğunu vurğulayıb.

Akademik İsa Həbibbəyli Qarabağda yaşıl iqtisadiyyatın tətbiqi və yaşıl enerji zonasının yaradılması istiqamətində görülən işlərə də toxunub. Bildirib ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq layihələri, yeni yaşayış məntəqələrinin salınması və müasir infrastrukturun yaradılması həmin ərazilərin yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin edir.

O, həmçinin Azərbaycanın Türkiyə və Gürcüstanla enerji əməkdaşlığının regional əhəmiyyət daşıdığını qeyd edərək bildirib ki, Azərbaycan və Türkiyənin enerji sahəsində əməkdaşlığı, eləcə də Gürcüstanla həyata keçirilən layihələr regionda enerji əlaqələrinin inkişafına mühüm töhfə verir.

Konfransın əhəmiyyətindən bəhs edən akademik İsa Həbibbəyli enerji siyasəti ilə yanaşı, enerji fəlsəfəsi və "yaşıl enerji fəlsəfəsi"nin də elmi müzakirələrə daxil edilməsini mühüm məqam kimi qiymətləndirib.

AMEA-nın müxtəlif elmi müəssisələrində enerji siyasəti, enerji təhlükəsizliyi və "yaşıl enerji" ilə bağlı araşdırmaların aparıldığını deyən alim bu tədqiqatların Azərbaycanın enerji siyasətinin elmi əsaslarının möhkəmləndirilməsinə xidmət etdiyini bildirib.

AMEA prezidenti konfrans çərçivəsində akademiya alimlərinin enerji siyasətinə dair tədqiqatlarının təqdim olunduğu sərginin təşkil edildiyini də diqqətə çatdırıb. O, bu istiqamətdə yeni elmi nəşrlərin əhəmiyyətini vurğulayıb.

Sonra Azərbaycanın regional enerji siyasətini və enerji layihələrinin inkişafı istiqamətində görülən tədbirləri əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra tədbir işini plenar iclasla davam etdirib. AMEA Rəyasət Heyətinin akademik katibi, "Azərenerji" ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun direktoru akademik Arif Həşimov "Böyük gücə və tutuma malik elektrik enerjisi saxlama sistemlərinin tətbiqi dövründə dövlətlərarası elektrik enerjisi mübadiləsinin fəlsəfəsi" adlı məruzə ilə çıxış edib.

Akademik Arif Həşimov bildirib ki, enerji Azərbaycanın yalnız iqtisadi inkişaf vasitəsi deyil, həm də ölkənin geosiyasi mövqeyini möhkəmləndirən strateji resursdur. Enerji resurslarının əhəmiyyəti onların həcmi ilə yanaşı, milli maraqların qorunmasına, geosiyasi təsirin artırılmasına və beynəlxalq münasibətlərdə müstəqil mövqenin təmin olunmasına verdiyi imkanlarla müəyyənləşir.

Məruzəçi Azərbaycanın regional enerji siyasətində yeni mərhələnin enerji istehsalından enerjinin səmərəli idarə edilməsinə, enerji ixracından isə dayanıqlı enerji əlaqələrinin formalaşdırılmasına keçidlə xarakterizə olunduğunu vurğulayıb. Qeyd edib kii, böyük gücə və tutuma malik enerji saxlanc sistemləri bu keçidin mühüm texnoloji və strateji dayaqlarından biridir.

Akademik Arif Həşimov Azərbaycanın regional elektrik enerjisi siyasətində Naxçıvanın roluna da diqqət çəkib. Alim Naxçıvanı Azərbaycan-Türkiyə və daha geniş regional enerji əlaqələrinin mühüm həlqəsi, Cənubi Qafqaz enerji dəhlizlərinin kəsişmə məkanı kimi səciyyələndirib. Əlavə edib ki, Naxçıvan gələcəkdə Mərkəzi Asiya ilə elektrik enerjisi mübadiləsinin genişləndirilməsi baxımından daha böyük regional enerji məkanının tərkib hissəsi kimi nəzərdən keçirilə bilər.

Tədbirdə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, professor Elman Nəsirov "Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasəti: ənənəvi enerjidən "yaşıl enerji"yə keçid" mövzusunda məruzəsini təqdim edib.

Professor Elman Nəsirov Azərbaycanın enerji siyasətinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin isə bu strategiyanın mühüm mərhələsi olduğunu bildirib. Qeyd edib ki, bu strateji kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması ilə yanaşı, ölkənin beynəlxalq enerji sistemində rolunu da gücləndirir.

Professor Elman Nəsirov Azərbaycanın coğrafi mövqeyi və enerji potensialının ölkəyə həm ənənəvi, həm də yaşıl enerji sahəsində regional və beynəlxalq əməkdaşlığı genişləndirmək üçün mühüm imkanlar yaratdığını vurğulayıb.

Konfransda, həmçinin AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, prof. İlham Məmmədzadə "Qələbədən sonrakı Cənubi Qafqazın geosiyasi mənzərəsi və reallıqları", Marmara Universitetinin Siyasi elmlər fakültəsi, Beynəlxalq münasibətlər kafedrasının müdiri, prof. Meral Balcı "Azərbaycanda enerji dönüşümü: tranzit və mərkəz ölkə olma siyasətləri", Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru, f.e.d. Cavid Abdullayev "Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadənin nəzəri və praktik aspektləri" adlı məruzələrlə çıxış ediblər.

Eyni zamanda, Sumqayıt Dövlət Universitetinin prorektoru, t.ü.f.d., dos. Elmar Xəlilovun "Tarixi-siyasi proseslər kontekstində Azərbaycanın Cənubi Qafqazın enerji təhlükəsizliyində rolu", Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, t.e.d. Eynulla Mədətlinin "İsrail-İran, ABŞ-İran qarşıdurmalarının Cənubi Qafqazda yaratdığı çağırışlar və Azərbaycanın mövqeyi", həmin institutun şöbə müdiri, prof. Rəna Mirzəzadənin "Azərbaycanın postmüharibə dövrü hərbi təhlükəsizlik və geostrateji xəttinə siyasi-fəlsəfi baxış (H. Kissincer nəzəri aspektində)" mövzularında məruzələri dinlənilib.

Plenar iclasda Gürcüstan Milli Elmlər Akademiyasının müxbir üzvü, prof. Revaz Kavtaradze, Qazi Universitetinin professoru Cengiz Taplamacıoğlu və Çin, CPEC, BRI, dünya siyasəti və Cənubi Qafqaz üzrə regional ekspert Mehmood Ul Hassan Khan da onlayn olaraq çıxış ediblər.

# Cavad Cavadlının 100 illiyi münasibətilə nəşr edilmiş kitabın təqdimatı

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında görkəmli şair, jurnalist və yazıçı Cavad Cavadlının 100 illik yubileyi münasibətilə qızı Jalə Cəfərovanın müəllifi olduğu "Nə yaxşı ki, Atam sənsən..." kitabının təqdimatı keçirilib.**






Tədbirdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli yazıçı-publisist Cavad Cavadlının 100 illik yubileyinə həsr olunmuş nəşrin təkcə bir övladın atasına olan ehtiramı deyil, bütövlükdə Azərbaycan ziyalılığının, xalqın ədəbi-bədii irsinə olan dərin hörmətinin təzahürü olduğunu diqqətə çatdırıb. Jalə Cəfərovanın müəllifi və tərtibatçısı olduğu kitabın əhəmiyyətini qeyd edən akademik İsa Həbibbəyli bu əsərin Cavad Cavadlı şəxsiyyətini, onun həqiqətpərəst mövqeyini və səmimiyyətini gerçəkliyi ilə əks etdirdiyini vurğulayıb.

O, kitabda yazıçı-publisist və şair Cavad Cavadlının keşməkeşli həyat yolu, zəngin yaradıcılığı və çoxşaxəli ictimai fəaliyyətinin müxtəlif baxış bucaqlarından işıqlandırıldığını söyləyib. AMEA rəhbəri, həmçinin nəşrdə şairin publisistik irsindən seçmələrin, müasirlərinin, qələm dostlarının xatirələrinin, görkəmli alimlərin elmi təhlillərinin, doğmalarının ürək sözlərinin, eləcə də ədibin ömür yolunu əks etdirən fotosalnamənin yer aldığını diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli nəşri şairin zəngin mənəvi irsini, vətəndaş mövqeyini, ədəbi şəxsiyyətini və insan kimi böyüklüyünü gələcək nəsillərə çatdırmaq baxımından qiymətli mənbə kimi dəyərləndirib.

AMEA rəhbəri xatırladıb ki, Jalə Cəfərovanın əvvəllər işıq üzü görmüş, böyük rəssam İbrahim Səfərov haqqındakı fundamental kitabı da daxil olmaqla mühüm xidmətləri hər zaman diqqət mərkəzində olub. O, bugünkü kitab təqdimatının öz xüsusi səmimiyyəti, təbiiliyi və yüksək səviyyəsi ilə seçildiyini qeyd edib. Vurğulayıb ki, tədbirdə qardaş Türkiyə Cümhuriyyətindən qonaqların iştirakı iki ölkə arasındakı mədəni və dostluq körpülərinin daha da möhkəmlənməsinə xidmət edir.

Sonra AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi filologiya elmləri doktoru, professor Akif İmanlı çıxış edərək görkəmli şair, jurnalist və yazıçı Cavad Cavadlının həyat və yaradıcılığı, eləcə də onun haqqında toplanmış xatirələr barədə dəyərli fikirlərini bölüşüb.

Professor Akif İmanlı bildirib ki, təqdim edilən kitabda Azərbaycanın əksər görkəmli ziyalılarının Cavad Cavadlı haqqındakı düşüncələri bir araya gətirilib. O, kitabda yer alan akademik İsa Həbibbəylinin yazıçı-publisist Cavad Cavadlı haqqında məqaləsinə diqqət çəkərək, bu tədqiqatın şairin ədəbi irsinin müasir elmi baxış bucağından dərindən təhlili və qiymətləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirib ki, məqalədə şairin həyatı aydın şəkildə şərh olunub, yaradıcılığı tam genişliyi ilə təhlil edilib.

Akif İmanlı, həmçinin Cavad Cavadlı ilə tanışlıq illərindən, şairlə keçirilən unudulmaz görüşlərdən bəhs edib.

Sonra görkəmli ədib Cavad Cavadlının zəngin ömür yolu, yaradıcılığı və mənəvi irsindən bəhs edən sənədli film nümayiş etdirilib.

Tədbirdə, həmçinin Türkiyədən olan qonaqlar - şair-publisist Cahit Günay və natiq, yazıçı, səsləndirmə sənətçisi Arzu Yılmaz Dağdemir çıxış edərək Azərbaycanda olmaqdan məmnunluqlarını ifadə ediblər, iki ölkə arasındakı mədəni əlaqələrin inkişafından söz açıblar. Qonaqlar Cavad Cavadlı irsinin ümumi Türk dünyası üçün böyük mənəvi dəyər kəsb etdiyini vurğulayıb, şairin yaradıcılığından şeirlər səsləndiriblər.

Tərcüməçi, muzeyşünas, filologiya üzrə fəlsəfə doktoru Məhəbbət Mehdiyeva Cavad Cavadlının dərin zəkalı və incə ruhlu bir şəxsiyyət olduğunu vurğulayıb. O, kitabı mütaliə etdikdən sonra Cavad Cavadlını şəxsiyyətini və yaradıcılığını tamamilə yeni bir baxışla, daha dərindən tanıdığını bildirib. Məhəbbət Mehdiyeva ictimaiyyətə təqdim edilən bu nəşrin sadəcə bir kitab deyil, müəllifin atasına olan sonsuz övlad sevgisinin və ehtiramının parlaq nümunəsi olduğunu qeyd edib.

Daha sonra kitabın müəllifi Jalə Cəfərova çıxış edərək atası Cavad Cavadlı haqqında xatirələrini bölüşüb, onun insanpərvər xarakterindən, yaradıcılıq yolundan bəhs edib. O, tədbirin ərsəyə gəlməsində əməyi keçən hər kəsə dərin minnətdarlığını bildirib.

Sonda "Nə yaxşı ki, Atam sənsən..." kitabının imzalanma mərasimi keçirilib.

# Türk dünyasının qüruru

**Elm tarixində elə şəxsiyyətlər var ki, kəşfləri ilə yeni istiqamətlərə yol açır, öz məktəblərini formalaşdırır və elmə baxışları ilə cəmiyyətin, dövlətin gələcək inkişafına və ictimai düşüncəyə əhəmiyyətli təsir göstərirlər. Nobel mükafatı laureatı, görkəmli biokimyaçı və molekulyar bioloq, türk dünyasının böyük oğlu, professor Aziz Səncər məhz belə alimlərdəndir.**



1946-cı il sentyabrın 8-də Türkiyənin Mardin vilayətinin Savur rayonunda dünyaya gəlmiş Aziz Səncərin həyatı bir tərəfdən Anadolu və Mesopotamiyanın sadə mühitindən çıxmış bir gəncin dünya elminin ən nüfuzlu mərkəzlərinə yüksəlişinin, digər tərəfdən isə fundamental elmin insan sağlamlığı ilə bağlı ən mürəkkəb problemlərin həllində oynadığı mühüm rolun parlaq nümunəsidir.

Aziz Səncərin həyat yolunda təhsil həlledici rol oynamışdır. Valideynlərinin elmə və maariflənməyə verdiyi dəyər sonralar gənc Azizin dünyagörüşünün mühüm tərkib hissəsinə çevrilmişdir. 1969-cu ildə İstanbul Universitetinin Tibb fakültəsini bitirən Səncər bir müddət doğma Savurda həkim kimi çalışmışdır. Lakin onu daha çox canlı orqanizmlərdə gedən bioloji proseslər və onların tənzimlənmə mexanizmlərinin öyrənilməsi cəlb edirdi. Aziz Səncər elmi karyera qurmaq məqsədilə getdiyi ABŞ-də ilk illər dil və yeni akademik mühitə uyğunlaşmaqda çətinliklərlə üzləşərək, hətta bir müddət Türkiyəyə qayıtmaq məcburiyyətində qalmışdır. Sonradan yenidən ABŞ-yə dönərək Dallasdakı Texas Universitetində Nobel mükafatçısı Klaud S.Rupertin rəhbərlik etdiyi laboratoriyada tədqiqatlara başlamışdır.

Onun əsas tədqiqat istiqamətlərindən biri DNT-dəki zədələnmələrin bərpasının molekulyar mexanizmlərinin öyrənilməsi olmuşdur. 1970-ci illərdə fotoliaza fermentini kodlaşdıran genin klonlaşdırılması üzrə əldə etdiyi nəticələr bu sahədə diqqətçəkən uğurlar sırasına daxil olmuşdur. Daha sonra Yale Universitetində fəaliyyətini davam etdirən Səncər, 1982-ci ildən etibarən Şimali Karolina Universitetində çalışaraq dünya miqyasında tanınan elmi məktəb formalaşdırmışdır.

## Səncəri Nobelə aparan böyük kəşf

Aziz Səncərin Nobel mükafatına aparan əsas elmi nailiyyətləri ultrabənövşəyi şüaların DNT-də yaratdığı zədələrin necə aradan qaldırılmasının öyrənilməsi ilə bağlı olmuşdur. Ultrabənövşəyi şüalanma nəticəsində DNT-də qonşu pirimidin əsasları, xüsusilə timinlər arasında siklobutan pirimidin dimerləri əmələ gəlmişdir. Belə zədələr genetik informasiyanın normal surətdə oxunmasına və köçürülməsinə mane olur.

Səncər əvvəlcə Escherichia coli bakteriyasında bu tip zədələri aradan qaldıran fotoliaza fermentinin fəaliyyət mexanizmini araşdırmış, daha sonra isə diqqətini nukleotid eksiziyasının bərpasına yönəltmişdir.

1982-ci ildə apardığı tədqiqatların nəticələri DNT-nin bərpa mexanizmlərinin molekulyar əsaslarının anlaşılmasında mühüm mərhələ olmuşdur. Sonrakı illərdə onun rəhbərlik etdiyi laboratoriyada insan hüceyrələrində nukleotid eksiziyasının bərpa sistemi araşdırılmışdır. Uzunmüddətli tədqiqatlar nəticəsində insan hüceyrələrində zədələnmiş DNT-dən kənarlaşdırılan fraqment müəyyən edilmiş, onun təxminən 24-32 nukleotiddən, orta hesabla isə 27 nukleotiddən ibarət olduğu göstərilmişdir. Bu nəticə insanlarda DNT-nin reparasiyasının molekulyar mexanizmlərinin daha dərindən başa düşülməsinə imkan vermişdir.

Səncərin əldə etdiyi nəticələr təkcə fundamental biologiya üçün deyil, tibb baxımından da böyük əhəmiyyət daşımışdır. Professorun araşdırmaları DNT-nin reparasiyası prosesləri, mutasiyaların yaranması və xərçəngin inkişafı arasındakı əlaqələrin aydınlaşdırılmasına mühüm töhfələr vermişdir.

Aziz Səncərin elmi fəaliyyətində diqqətçəkən istiqamətlərdən biri də DNT-nin reparasiyası proseslərinin insan genomu boyunca xəritələndirilməsi olmuşdur. O, bu nəticələri metaforik şəkildə "mənim Piri Reis xəritəm" adlandırmışdır. Bu bənzətmə təsadüfi deyildi. Belə ki, XVI əsrdə Piri Reis dünyanın xəritəsini tərtib etmişdi, Səncər da genomun müxtəlif bölgələrində bərpa proseslərinin necə paylandığını müəyyənləşdirməyə çalışmışdır.

Aziz Səncərin laboratoriyası sonrakı illərdə XR-seq metodunun inkişafına mühüm töhfə vermişdir. Bu yanaşma genomun hansı hissələrində zədələrin daha sürətlə, hansı sahələrində isə daha zəif aradan qaldırıldığını yüksək dəqiqliklə müəyyən etməyə imkan yaratmışdır.

Aziz Səncərin elmi fəaliyyətinin digər mühüm istiqaməti ilk baxışda DNT-nin reparasiyası ilə əlaqəsiz görünən sirkad ritmlər və bioloji saat sistemi olmuşdur. Lakin alimin tədqiqatlarının daxili məntiqi burada da özünü göstərmişdir. Çünki hüceyrələrin DNT zədələnmələrinə reaksiyası və bərpa proseslərinin intensivliyi bioloji ritmlərlə sıx əlaqəlidir. Aziz Səncərin 1990-cı illərin sonlarından etibarən apardığı tədqiqatlar DNT reparasiyası, hüceyrə biologiyası və zaman biologiyası arasında yeni əlaqələr ortaya qoymuşdur. Bu araşdırmalar xronoterapiya adlanan yanaşmaya da elmi əsas yaratmışdır.

Bu yanaşma xərçəng müalicəsində yalnız "hansı dərman istifadə edilməlidir?" sualını deyil, həm də "dərman nə vaxt tətbiq edilməlidir?" sualını ön plana çıxarmışdır. Səncər sirkad ritmlərlə DNT-nin reparasiyası arasındakı əlaqənin onkologiya üçün əhəmiyyətini hələ Nobel mükafatından əvvəl vurğulamış və bu istiqamətin böyük perspektiv vəd etdiyini bildirmişdir.

## Nobel mükafatı: zirvə deyil, yeni mərhələnin başlanğıcıdır

7 oktyabr 2015-ci ildə İsveç Kral Elmlər Akademiyası Kimya üzrə Nobel mükafatının Tomas Lindahl, Paul Modrich və Aziz Səncərə verildiyini elan etdi. Mükafat alimlərə "DNT-nin reparasiya mexanizmlərinin tədqiqinə görə" təqdim olunmuşdu. Bu qərar DNT-də yaranan zədələrin hüceyrə tərəfindən necə aşkarlandığını və aradan qaldırıldığını anlamaq istiqamətində aparılan fundamental tədqiqatların əhəmiyyətini bir daha göstərmişdir.

Aziz Səncər üçün Nobel mükafatının xüsusi mənəvi və milli əhəmiyyəti də vardı. Səncər bu mükafatı alan ilk Türkiyə doğumlu alim kimi tarixə düşmüşdür. Elm sahəsində Türkiyənin adını Nobel tarixinin səhifələrinə ilk dəfə o yazdırmışdır. Bundan on il əvvəl - 2005-ci ildə gələcək Nobelçinin ilk türk-amerikalı alim kimi ABŞ Milli Elmlər Akademiyasına üzv seçilməsi də mühüm hadisə idi.

Aziz Səncərin elmi nailiyyətləri arasında həmçinin ABŞ Milli Elm Fondunun Young Investigator Award mükafatı, Amerika Fotobiologiya Cəmiyyətinin mükafatı, TÜBİTAK mükafatı, Amerika İncəsənət və Elmlər Akademiyasına üzvlük, TÜBA üzvlüyü, Vehbi Koç Mükafatı və s. xüsusi yer tutur.

Aziz Səncərin elmi fəaliyyətindəki davamlılıq 80 illik yubileyi dövründə də aydın görünür. 2026-cı ildə professorun həmmüəllifi olduğu elmi məqalələr onun yuxarıda qeyd edilən tədqiqatları uğurla davam etdirdiyini göstərir. Maraqlıdır ki, bu tədqiqatların mühüm bir istiqaməti DNT-nin bərpası mexanizmləri haqqında fundamental biliklərin xərçəng müalicəsinə tətbiqi ilə bağlıdır.

Səncərin böyüklüyünü təsdiq edən ən mühüm faktlardan biri də özündən sonra davam edəcək elmi məktəb formalaşdırmasıdır. Şimali Karolina Universitetində onun laboratoriyası onilliklər ərzində DNT-nin reparasiyası, genom sabitliyi, sirkad və xərçəng biologiyası istiqamətlərində tədqiqat aparan çoxsaylı alimlərin yetişdiyi elmi mərkəzə çevrilmişdir.

Aziz Səncər Azərbaycan üçün konkret kadr hazırlığında da iştirak etmişdir. Genetik Ehtiyatlar İnstitutunun doktorantı olmuş Xaqani Eynullazadəyə (hazırda Şimali Karolina Universitetində çalışır) elmi rəhbərlik edərək onun ABŞ-də təhsil almasına və müdafiəsinə kömək göstərmişdir.

## Türk dünyası ideyası və Səncərin yeni missiyası

Səncərin ictimai dünyagörüşündə Mustafa Kamal Atatürk və Türkiyə cümhuriyyətinin elm və təhsil siyasəti xüsusi yer tutur. Nobel mükafatından sonra ən çox müzakirə olunan addımlarından biri Nobel medalını Anıtkabirə təqdim etməsi olmuşdur. Səncər bunu Atatürk və cümhuriyyət qarşısında minnətdarlığının ifadəsi kimi izah etmişdi.

Aziz Səncərin Nobel laureatı kimi fəaliyyətinin mühüm istiqamətlərindən biri də türk dünyasında elm və təhsilin inkişafına verdiyi diqqətdir. Onun bu sahədə fəaliyyəti son illərdə daha sistemli xarakter almışdır. Səncər türk dünyasının müxtəlif ölkələrində elm və təhsil müəssisələrində çıxışlar edir, gənc alimlərlə görüşür, elm siyasəti və elmi inkişafın prioritetləri haqqında fikirlərini bölüşür.

2024-cü ildə Bakıda AMEA-nın Ümumi yığıncağının Xüsusi iclasında onun "Türk dünyası və elm siyasəti: reallıqlar və çağırışlar" mövzusunda məruzə ilə çıxış etməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. "Xəyalım türk dünyasının birliyini görməkdir" fikri böyük alimin bu istiqamətdəki baxışlarının mahiyyətini ifadə edir.

## Azərbaycanla bağlanan elmi və mənəvi körpü

Aziz Səncərin Azərbaycanla əlaqələri son illərdə yalnız elmi müstəvidə deyil, insani münasibətlər baxımından da diqqət çəkir. Nobel mükafatçısı müxtəlif illərdə Azərbaycanda olmuş, ali təhsil və elmi müəssisələrdə çıxışlar etmiş, gənc tədqiqatçılarla görüşərək öz elmi təcrübəsini bölüşmüşdür. Bu görüşlərdə onun diqqət yetirdiyi əsas məsələlərdən biri gənclərin elmə marağının artırılması və təhsilin insan həyatındakı həlledici rolu olmuşdur.

2021-ci ilin dekabrında Azərbaycana səfəri zamanı Aziz Səncərin Prezident İlham Əliyevlə görüşü onun Azərbaycanla əlaqələrinin mühüm məqamlarından birinə çevrilmişdir. Prezident İlham Əliyev dünyaşöhrətli alimi qəbul edərək, Səncərin Vətən müharibəsi zamanı Azərbaycanın haqlı mövqeyinə verdiyi açıq dəstəyi və Qələbə münasibətilə Azərbaycan xalqına çatdırdığı təbrikləri yüksək qiymətləndirmişdir. Görüşdə cənab Prezident həmçinin Gəncənin raket atəşinə tutulması nəticəsində valideynlərini itirmiş uşağa Səncərin göstərdiyi yardımı böyük insanpərvərlik nümunəsi kimi dəyərləndirmişdir. İlham Əliyev Aziz Səncəri türk dünyasının böyük şəxsiyyətlərindən biri kimi səciyyələndirərək Azərbaycan xalqının ona görkəmli alim və vətənpərvər ziyalı kimi yüksək hörmət bəslədiyini vurğulamışdır.

2023-cü il noyabrın 29-da isə AMEA-nın Ümumi yığıncağında professor Aziz Səncər akademiyanın fəxri üzvü seçilmiş, 2024-cü il iyunun 3-də Bakıda AMEA-nın Rəyasət Heyətinin binasında keçirilmiş xüsusi tədbirdə ona fəxri üzvlük diplomu və medalı təqdim edilmişdir. Tədbirdə Aziz Səncərin səsləndirdiyi fikirlər isə bu münasibətlərin yalnız elmi əməkdaşlıq çərçivəsində qalmadığını göstərmişdir. Azərbaycanda ona həmişə böyük hörmət və ehtiram göstərildiyini bildirən alim burada olmaqdan Türkiyəyə gəlmək qədər sevinc duyduğunu söyləmiş və "Azərbaycan mənim üçün Türkiyə qədər önəmlidir" fikrini ifadə etmişdir.

2024-cü il səfəri Aziz Səncər üçün Azərbaycan elminin canlı mənzərəsi ilə yaxından tanış olmaq baxımından da xüsusi əhəmiyyət daşımışdır. Nobel laureatı AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutuna (hazırda "Molekulyar Biologiya İnstitutu" PHŞ) baş çəkərək burada aparılan işlərlə yerindəcə tanış olmuşdur. Professora Genomun quruluşu və ekspressiyası, Hüceyrənin membran sistemləri, Bioadaptasiya və Populyasiya genomikası laboratoriyalarında aparılan araşdırmalar təqdim edilmişdir.

Nobel laureatının xüsusilə gənc tədqiqatçılara ünvanladığı fikirlər diqqət çəkmişdir. O, institutun gənc alimlərinin gələcəkdə mühüm nəticələr əldə edəcəklərinə, onların həm Azərbaycana, həm də daha geniş mənada türk dünyasına və bütövlükdə insanlığa töhfə verə biləcəyinə inamını ifadə etmişdir. Böyük alim görüşün sonunda instituta "Aziz Səncər: həyatı və bilimi" adlı kitab hədiyyə etmişdir.

Həmin gün Bakıda iki fərqli coğrafiyada formalaşmış, lakin eyni fundamental suala (canlı aləmin molekulyar əsaslarını necə anlamaq olar?) cavab axtaran elmi ənənələr qarşılaşırdı: bir tərəfdə DNT-nin reparasiyası və hüceyrənin daxili mexanizmləri üzrə dünyaşöhrətli Səncər məktəbi, digər tərəfdə isə Azərbaycanda akademik Cəlal Əliyevin formalaşdırdığı molekulyar biologiya məktəbi.

Bu qarşılaşmanın başqa bir mənəvi tərəfi də vardır. Professor Aziz Səncərin və akademik Cəlal Əliyevin elmi yolları müxtəlif istiqamətlərdə inkişaf etsə də, onları birləşdirən mühüm ortaq xətt mövcuddur: fundamental biologiyaya dərin maraq, genetika və molekulyar biologiyanın imkanlarına inam və elmi məktəbin davamlılığını təmin edəcək yeni nəsil tədqiqatçıların yetişdirilməsinə verilən xüsusi dəyər. Bu baxımdan, institutdakı görüşlər iki elmi irs və iki nəsil arasında qurulan intellektual körpü kimi də yadda qalmışdır.

Professor Aziz Səncərin Azərbaycan elmi ilə əlaqələrinin daha bir mühüm göstəricisi onun ETN Molekulyar Biologiya İnstitutu tərəfindən nəşr olunan və bu yaxınlarda Scopus beynəlxalq indeksləmə bazasına qəbul olunmuş "Transactions of the Institute of Molecular Biology & Biotechnologies" (TIMBB) jurnalının Redaksiya heyətinin fəxri üzvü olmasıdır. Bu fakt TIMBB-nin beynəlxalq elmi əlaqələrinin genişlənməsi və nüfuzunun artması baxımından diqqətəlayiqdir.

## Elm insanlığa xidmət etməlidir

Aziz Səncərin elmi dünyagörüşünü ən yaxşı ifadə edən fikir onun 2024-cü ildə AMEA-da səsləndirdiyi tezisdir: "Elm insanlığa, bəşəriyyətə xidmət etməlidir". Alimin DNT-nin bərpası üzrə fundamental araşdırmaları bunun canlı nümunəsidir.

Lakin Səncərin missiyası laboratoriya ilə bitmir. O, elmi biliklə yanaşı, elm mədəniyyətinin də yayılmasını vacib sayır. Türk dünyasında elmi əlaqələrin gücləndirilməsi, gənc tədqiqatçıların dəstəklənməsi və ortaq elmi potensialın daha səmərəli istifadə olunması barədə çağırışları onun bu düşüncəsinin davamıdır.

Savurda sadə bir ailədə başlayan yolçuluq dünyanın ən yüksək elmi mükafatlarından birinə qədər uzanmışdır. Bu həyat hekayəsi göstərir ki, insanın yola haradan başladığı onun haraya gedəcəyini müəyyən etmir. Həlledici olan bilik axtarışına sədaqət, elmi cəsarət və öyrənməkdən heç vaxt vaz keçməməkdir.

Aziz Səncərin 80 illik ömür yolu məhz bu həqiqətin canlı nümunəsidir.

**İradə HÜSEYNOVA,**
**AMEA-nın vitse-prezidenti, akademik**

# Azərbaycan dilinin 2040-cı ilədək inkişaf perspektivləri: çağırışlar və strateji hədəflər




**AMEA-nın Humanitar Elmlər Bölməsinin Elmi şurasının növbəti iclası keçirilib.**

İclası giriş sözü ilə Elmi şuranın sədri, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açıb və gündəlikdə duran məsələlər barədə məlumat verib.

İclasda AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru filologiya elmləri doktoru, professor Nadir Məmmədlinin "Azərbaycan dilinin 2040-cı ilədək inkişaf perspektivləri: çağırışlar və strateji hədəflər" mövzusunda elmi məruzəsi dinlənilib.

Məruzədə Azərbaycan dilinin 2040-cı ilədək inkişaf perspektivləri, qarşıda duran müasir çağırışlar və strateji hədəflər geniş təhlil olunub. Bildirilib ki, Azərbaycan dili xalqımızın milli varlığını, tarixi yaddaşını və dövlətçilik ənənələrini yaşadan mühüm mənəvi sərvətdir. XXI əsrdə dilin davamlılığı və funksional imkanlarının genişlənməsi isə onun yalnız ədəbi və ictimai mühitdə deyil, eyni zamanda elm, texnologiya, rəqəmsal platformalar və süni intellekt sistemlərində fəal istifadəsi ilə bilavasitə bağlıdır.

Qeyd olunub ki, 2040-cı il perspektivində əsas məqsəd Azərbaycan dilinin qorunması ilə yanaşı, onun müasir elmi-texnoloji inkişafın tələblərinə uyğunlaşdırılması, rəqəmsal mühitdə funksional imkanlarının genişləndirilməsi və rəqabətqabiliyyətli dil resurslarının formalaşdırılmasıdır.

Çıxışda Azərbaycan dilində rəqəmsal məzmunun yetərli səviyyədə olmaması, terminoloji pərakəndəlik, habelə süni intellekt sistemlərində dilimizin imkanlarının məhdudluğu əsas çağırışlar sırasında səsləndirilib. Azərbaycan dilinin maşınlar və rəqəmsal texnologiyalar tərəfindən daha effektiv emalını təmin etmək məqsədilə geniş elektron mətn korpuslarının, nitq nümunələrinin, morfoloji və sintaktik resursların yaradılmasının zəruriliyi vurğulanıb.

Eyni zamanda, sosial media və gənclərin ünsiyyət dilində müşahidə olunan yeni tendensiyalara qadağalar müstəvisindən deyil, canlı dil proseslərinin elmi əsaslarla öyrənilməsi və ədəbi dil normaları ilə müasir dil istifadəsi arasında optimal balansın yaradılması baxımından yanaşılmasının vacibliyi irəli sürülüb.

İnformasiya texnologiyaları və yeni elm sahələri üzrə xarici terminlərin mexaniki şəkildə mənimsənilməsinin qarşısının alınması, Azərbaycan dilində terminoloji sistemin ardıcıl və vahid prinsiplər əsasında inkişaf etdirilməsi üçün vahid elektron terminologiya bazanın yaradılmasının əhəmiyyəti qeyd edilib.

Məruzədə gənc nəslin Azərbaycan dilinin gələcək daşıyıcısı olduğu nəzərə alınaraq, onların ana dilində müasir, keyfiyyətli və cəlbedici rəqəmsal məzmunla təmin edilməsinin mühüm strateji hədəflərdən biri olduğu bildirilib. 2040-cı ilədək əsas prioritetlər sırasında Milli Dil Korpusunun və yeni nəsil elektron lüğətlərin yaradılması, eləcə də Azərbaycan dilinin beynəlxalq rəqəmsal məkanda mövqeyinin gücləndirilməsi xüsusi vurğulanıb.

Yekunda qeyd olunub ki, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu qarşıdakı dövrdə yalnız fundamental və tətbiqi dilçilik araşdırmalarının aparıldığı elmi müəssisə kimi deyil, həm də milli dil siyasətinin elmi təminatında fəal iştirak edən, rəqəmsal və tətbiqi layihələr həyata keçirən aparıcı elmi mərkəz kimi fəaliyyətini genişləndirməlidir.

Məruzə ətrafında Dilçilik İnstitutunun süni intellekt və rəqəmsal inkişaf üzrə direktor müavini filologiya elmləri doktoru Məsud Mahmudov və Nəzəri dilçilik şöbəsinin müdiri filologiya elmləri doktoru, professor İlham Tahirov çıxış edərək mövzu ilə bağlı fikir və mülahizələrini bölüşüblər. Professor Nadir Məmmədlinin elmi məruzəsi iclas iştirakçıları tərəfindən müzakirə edilərək qəbul olunub.

İclas çərçivəsində Humanitar Elmlər Bölməsinin elmi müəssisələri tərəfindən son dövrdə hazırlanaraq nəşr olunmuş yeni elmi əsərlər barədə də məlumat verilib. Akademik İsa Həbibbəylinin müəllifi olduğu "Akademik Məmməd Cəfər Cəfərov" monoqrafiyası, Elçin İsmayılov və müəlliflər kollektivinin hazırladığı "Qərbi Azərbaycan toponimləri" kitabının II cildi, həmçinin "Qarabağ və Şərqi Zəngəzur toponimləri" kitabının I cildi Elmi Şura üzvlərinin diqqətinə təqdim edilib.

Bildirilib ki, sözügedən nəşrlər Azərbaycan humanitar elminin müxtəlif istiqamətləri üzrə aparılan fundamental və tətbiqi tədqiqatların mühüm nəticələrini özündə əks etdirir, milli-mədəni və ədəbi irsin hərtərəfli və sistemli şəkildə öyrənilməsi, elmi dövriyyəyə daxil edilməsi və gələcək araşdırmalar üçün zəngin mənbə bazasının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Daha sonra AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Elmi şurasının tərkibində qismən dəyişiklik edilməsi məsələsinə baxılıb, eləcə də bir sıra kadr məsələləri müzakirə olunub.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı, Azərbaycan mühacirət ədəbiyyatı, Rəqəmsal ədəbiyyatşünaslıq və süni intellekt şöbələrinə, həmçinin Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili və nitq mədəniyyəti və Onomastika şöbələrinə müdiri vəzifələrinə namizədlərin təsdiq olunması üçün AMEA Rəyasət Heyəti qarşısında vəsatət qaldırılması barədə qərar qəbul edilib.

Bununla yanaşı, humanitar yönümlü elmi müəssisələrin əməkdaşlarının baş, aparıcı və elmi işçi vəzifələrinə təyinatı ilə bağlı bölmənin müvafiq qərarları təsdiq olunub.

İclasda Azərbaycan humanitar elminin inkişafı, tədqiqi və təbliğində mühüm xidmətləri olan alimlərin yubileylərinin qeyd edilməsi ilə bağlı məsələlərə də baxılıb.

Elmi şuranın sədri akademik İsa Həbibbəylinin tapşırığına əsasən, görkəmli yazıçı, dramaturq, ədəbiyyatşünas və ictimai xadim, Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında mühüm xidmətləri olan akademik Mirzə İbrahimovun anadan olmasının 115 illiyi münasibətilə Azərbaycan Yazıçılar Birliyi, AMEA-nın Humanitar Elmlər Bölməsi və Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə elmi sessiyanın keçirilməsi qərara alınıb. Qeyd edilib ki, Mirzə İbrahimov zəngin yaradıcılığı, çoxşaxəli elmi-ədəbi fəaliyyəti və milli ədəbiyyatın inkişafına verdiyi töhfələrlə Azərbaycan ədəbi-mədəni fikir tarixində özünəməxsus mövqeyə malikdir.

Həmçinin AMEA-nın müxbir üzvü Abbas Zamanovun 115 illiyi diqqətə çatdırılıb. Alimin milli ədəbiyyatşünaslıq elminin inkişafına verdiyi töhfələr nəzərə alınaraq, Azərbaycan Yazıçılar Birliyi, Bakı Dövlət Universiteti və Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə elmi sessiyanın keçirilməsi barədə qərar qəbul olunub.

İclasda, həmçinin AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun Musiqi folkloru şöbəsinin müdiri sənətşünaslıq doktoru, professor İradə Köçərli 70 illik yubileyi münasibətilə AMEA-nın Yaxa nişanı ilə təltif olunub.

Elmi şuranın iclası gündəlikdə duran məsələlər üzrə müvafiq qərarların qəbul edilməsi ilə başa çatıb.

# Qarabağın paleolit abidələri müasir tədqiqatlarda

**AMEA-nın İctimai Elmlər Bölməsinin Elmi şurasının növbəti iclası keçirilib.**



İclası AMEA-nın vitse-prezidenti v.i.e., İctimai Elmlər Bölməsinin Elmi şurasının sədri akademik Gövhər Baxşəliyeva açaraq tədbirin gündəliyini iştirakçıların diqqətinə çatdırıb.

Akademik Gövhər Baxşəliyeva iclasda bildirib ki, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun direktoru tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyevin "Qarabağın paleolit abidələri müasir tədqiqatlarda" mövzusunda məruzəsi dinləniləcək.

Tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev çıxışında Qarabağın dünya paleolit arxeologiyasında mühüm yer tutan Azıx və Tağlar mağaralarında son illərdə aparılan yeni arxeoloji tədqiqatlar, tətbiq edilən müasir elmi metodlar, əldə olunan ilkin nəticələr və beynəlxalq elmi əməkdaşlıq haqqında məlumat verib.

Fərhad Quliyev qeyd edib ki, Qarabağın işğaldan azad edilməsindən sonra bölgənin arxeoloji irsinin, o cümlədən paleolit abidələrinin müasir elmi standartlar əsasında yenidən və sistemli şəkildə tədqiqi üçün yeni mərhələ başlanıb: "Bu mərhələnin əsas xüsusiyyətlərindən biri klassik arxeoloji qazıntıların ən yeni rəqəmsal, arxeometrik və laboratoriya metodları ilə birləşdirilməsidir. Müasir tədqiqatların qarşısında duran vəzifə yalnız qədim homininlərin maddi mədəniyyət qalıqlarını aşkar etmək deyil, eyni zamanda onların hansı təbii mühitdə yaşadıqlarını, ətraf mühitə necə uyğunlaşdıqlarını, hansı resurslardan istifadə etdiklərini, mobillik və əlaqə şəbəkələrini kompleks şəkildə müəyyənləşdirməkdir".

Müəllif bildirib ki, Azıx mağarasında tədqiqatlar AMEA Arxeologiya və Antropologiya İnstitutu ilə Almaniyanın Leybniz Arxeologiya Mərkəzi - LEIZA arasında imzalanmış memorandum çərçivəsində Azərbaycan-Almaniya beynəlxalq ekspedisiyası tərəfindən həyata keçirilib. Onun sözlərinə görə, layihəyə Azərbaycan və Almaniya ilə yanaşı, bir sıra Avropa ölkələri və ABŞ-dan arxeologiya, paleoekologiya, paleoproteomika, geologiya, geoxronologiya, arxeobotanika, zooarxeologiya və digər sahələrin mütəxəssisləri cəlb olunub.

"Azıx mağarasının müxtəlif sahələrində aparılan yeni tədqiqatlarda arxeoloji tapıntıların və onların kontekstlərinin üçölçülü koordinatlarla qeydə alınması, fotogrammetriya və 3D modelləşdirmə, Arxeoloji İnformasiya Sistemləri və xüsusi rəqəmsal məlumat bazasının yaradılması, mikroskopik və traseoloji analizlər, flotasiya, paleobotanika, zooarxeologiya və tafonomiya kimi müasir metodlardan istifadə edilir. Eyni zamanda OSL tarixləndirməsi, kosmogen nuklid analizləri, üzvi geokimyəvi biomarkerlər və stabil izotop analizləri vasitəsilə mağaranın xronologiyasının, paleoiqlim və paleomühit şəraitinin daha dəqiq rekonstruksiyası istiqamətində işlər görülür", - deyə çıxışında bildirib.

Məruzəçi vurğulayıb ki, Azıx materiallarının paleoproteomika və ZooMS kimi ən yeni biomolekulyar metodlarla öyrənilməsi də xüsusi əhəmiyyət daşıyır. Kopenhagen Universitetinin Qlobe İnstitutunun tanınmış mütəxəssisi professor Frido Welkerin rəhbərliyi altında aparılan bu araşdırmalar morfoloji baxımdan müəyyənləşdirilməsi çətin olan sümük fraqmentlərinin bioloji mənsubiyyətini molekulyar səviyyədə aydınlaşdırmağa imkan verir. LEIZA-nın mütəxəssisi Jo?o Marreiros və digər xarici alimlərin iştirakı ilə daş və sümük alətlərin funksional təyinatının müəyyənləşdirilməsi üçün traseoloji və "use-wear" analizləri də həyata keçirilir.

Fərhad Quliyev bildirib ki, Azıxda aparılan müasir tədqiqatların məqsədi qədim insanı yalnız ayrıca bioloji varlıq və ya daş alət istehsalçısı kimi deyil, onu əhatə edən ekoloji sistemin tərkib hissəsi kimi öyrənməkdir. Belə yanaşma homininlərin yaşayış mühiti, iqlim dəyişikliklərinə adaptasiyası, qida əldə etmə strategiyaları, xammal seçimi, texnoloji davranışı və miqrasiya prosesləri haqqında daha dolğun elmi təsəvvür yaratmağa imkan verir.

Məruzəçi araşdırmaların digər mühüm hissəsinin Xocavənd rayonunun Böyük Tağlar kəndində yerləşən Tağlar mağarasının yeni tədqiqatlarına həsr olunduğunu qeyd edib. AMEA Arxeologiya və Antropologiya İnstitutu ilə Tokio Universiteti arasında 2023-cü ildə bağlanmış müqavilə əsasında Azərbaycan-Yaponiya beynəlxalq ekspedisiyası 2026-cı ildə burada üçüncü tədqiqat mövsümünü həyata keçirib. Azərbaycan tərəfdən tədqiqatlara tarix üzrə fəlsəfə doktoru, dosent Azad Zeynalov, Yaponiya tərəfindən isə Tokio Universiteti Muzeyinin direktoru professor Yoşihiro Nişiakinin rəhbərlik etdiyi alimlər qrupu qatılıb.

Məruzəçi qeyd edib ki, Tağlar mağarası 1960-cı ildə Azərbaycan paleolitşünaslığının banisi Məmmədəli Hüseynov tərəfindən qeydə alınıb, 1964-1986-cı illərdə aparılan qazıntılar zamanı burada altı mədəni təbəqə və 9 mindən artıq arxeoloji nümunə müəyyən edilib. Müasir tədqiqatlar həmin elmi irsi yeni metodoloji imkanlarla davam etdirir. Mağaranın əsas mədəni təbəqələri Orta Paleolit - Mustye dövrü ilə əlaqələndirilsə də, Üst Paleolit nümunələri də qeydə alınıb. Hazırda təbəqələrin mütləq yaşının dəqiqləşdirilməsi üçün radiometrik analizlər aparılır. Bu tədqiqatlar Tağların neandertalların Cənubi Qafqazda məskunlaşması və miqrasiyası, həmçinin sonrakı mərhələlərdə müasir insan populyasiyaları ilə münasibətlərinin öyrənilməsi baxımından əhəmiyyətini daha da artırır.

Məruzədə Tağlar mağarasından aşkar edilmiş obsidian materiallarının müasir arxeometrik metodlarla tədqiqinin nəticələrinə də toxunulub. Rentgen-flüoresans analizi əsasında aparılan araşdırmalar Orta Paleolit dövründə Cənubi Qafqazda yaşayan neandertal populyasiyalarının obsidian xammalını müxtəlif mənbələrdən əldə etdiklərini göstərib. Bəzi obsidian mənbələrinin Tağlar mağarasından yüzlərlə kilometr uzaqda yerləşməsi qədim insanların yüksək mobilliyi, geniş əlaqə dairəsi və ehtimal olunan mübadilə şəbəkələri məsələsini gündəmə gətirir. Bu tədqiqatın nəticələri beynəlxalq elmi bazalarda indeksləşən "Journal of Archaeological Science: Reports" jurnalında dərc edilib.

Fərhad Quliyev çıxışında Azıx və Tağlar üzrə aparılan tədqiqatların nəticələrinin beynəlxalq elmi dövriyyəyə daxil edilməsinin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O bildirib ki, xarici elmi mərkəzlərlə bağlanan müqavilə və memorandumlar yalnız birgə qazıntıların təşkili ilə məhdudlaşmır. Bu əməkdaşlıq Azərbaycanda əldə olunan arxeoloji materialların dünyanın aparıcı laboratoriyalarında ən müasir metodlarla analiz edilməsinə, tanınmış xarici alimlərin tədqiqatlara cəlb olunmasına, Azərbaycan alimləri və gənc mütəxəssislərin beynəlxalq elmi şəbəkələrə inteqrasiyasına şərait yaradır.

Məruzədə, həmçinin Qarabağ Universitetinin tələbə və gənc tədqiqatçılarının Azıx ekspedisiyasına, digər ali məktəblərin tələbələrinin isə Tağlar tədqiqatlarına cəlb edilməsinin gələcək milli elmi kadrların hazırlanması baxımından mühüm əhəmiyyət daşıdığı bildirilib.

Tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev bildirib ki, Azıx və Tağlar mağaralarında aparılan yeni tədqiqatlar Qarabağın Paleolit dövrünün öyrənilməsini keyfiyyətcə yeni mərhələyə çıxarır. Müasir arxeologiya, təbiət elmləri, rəqəmsal texnologiyalar və biomolekulyar metodların vahid tədqiqat proqramında birləşdirilməsi qədim homininlərin yalnız maddi mədəniyyətini deyil, onların bioloji xüsusiyyətlərini, yaşayış mühitini, adaptasiya strategiyalarını, texnoloji davranışını, mobilliyini və geniş regional əlaqələrini kompleks şəkildə öyrənməyə imkan verir.

Məruzə dinlənildikdən sonra mövzu ətrafında müzakirələr aparılıb.

İclasda, o cümlədən bir sıra elmi-təşkilati və kadr məsələləri də müzakirə olunub. Azərbaycan Respublikası Prezidentinin Üzeyir Hacıbəyovun 140, Xaqani Şirvaninin və Əcəmi Naxçıvaninin 900, Səməd Vurğunun 120 illik yubileylərinin qeyd olunması ilə əlaqədar sərəncamlarının icra vəziyyətindən söz açılıb. Həmçinin akademik Gövhər Baxşəliyeva "Azərbaycan mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın 2026-2030-cu illər üçün həyata keçiriləcək tədbirlər planına dair təkliflərin verilməsi ilə bağlı institutlara müəyyən tapşırıqlar verilib.

Daha sonra tarix elmləri doktoru, dosent Allahverdi Əlimirzəyev və tarix elmləri doktoru, dosent Vidadi Umudlunun AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutuna baş, tarix üzrə fəlsəfə doktoru Günel Mehdizadənin böyük elmi işçi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Etibar Əsədovun AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi vəzifəsinə təsdiq edilməsi məsələləri müzakirə olunub.

İclasda, həmçinin AMEA-nın müxbir üzvü Sevda Məmmədəliyevanın 80, AMEA-nın müxbir üzvü Aqil Əliyevin 100 illik yubileyləri haqqında qərarlar müzakirə edilib.

Sonda akademik Gövhər Baxşəliyeva bir sıra məsələlərlə əlaqədar müəssisələrin rəhbərlərinə tapşırıq və tövsiyələrini verib.




# Dövlət və xalqın vəhdəti: 27 Sentyabr

**Müasir Vətən tarixində bir çox əlamətdar günlər var. Onların sırasında 27 sentyabr 2020-ci il tarixi ilə başlayan II Qarabağ müharibəsində, Azərbaycan Respublikasının şərəf tarixində iz qoymuş qazi və şəhidlərimiz qısa, lakin şərəfli döyüş yolu keçərək əbədiyyət ünvanı qazanmışlar. Şanlı 27 sentyabr tarixi əslində dövlət və xalqın birliyindən, vəhdətindən başlayan şərəfli gün, qələbəyə aparan 44 günlük yol idi. Bu yol bizi şəhadətdən əbədiyyətə aparacaq qədər aydın və şərəfli yoldur.**

Qədim dövlətçilik ənənələri ilə XXI əsrdə sülhə, inkişafa və əməkdaşlığa nail olan Azərbaycan Respublikasının Vətən müharibəsində qazandığı parlaq qələbə 27 sentyabrdan ötən altı il ərzində beynəlxalq mətbuatın gündəmindən düşmədi. Azərbaycan xalqının düşmən tərəfindən başladılmış müharibədə əldə etdiyi hərbi və siyasi üstünlük, xüsusilə mübariz ordunun peşəkar fəaliyyəti dünyanın aparıcı beyin mərkəzləri və hərbi ekspertlər tərəfindən hələ də öyrənilməkdədir. Avropa strateqlərinin mürəkkəb relyeflərdən aşaraq Şuşaya daxil olan Azərbaycan xüsusi təyinatlılarının profesionallığı ilə bağlı fikirləri onlar üçün hələ də sirr olaraq qalır.

Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və yenilməz ordunun qətiyyəti dövlət və xalq birliyini dəmir yumruğa çevirdi həmin tarixdə. Bu səbəbdən, ölkə başçısının 2 dekabr 2020-ci il tarixli Sərəncamı ilə 27 sentyabr ölkədə "Anım Günü" olaraq qeyd olunur. Dövlət başçısı tərəfindən imzalanan sənəd xalqın qürurunu özünə qaytaran gün olub şərəfli tarixə, şəhidlərimizi anmaq üçün birlik və bərabərliyimizin simvoluna çevrildi.

Həmin tarix təkcə Azərbaycana sülh gətirmədi, həmçinin təmsil olunduğumuz Cənubi Qafqaz regionunda əmin-amanlıq bərqərar olundu. Azərbaycan dövləti bölgədə sülhün və inkişafın qarantına çevrildi. Regionun ən güclü və peşəkar ordusuna, qüdrətli iqtisadi potensialına malik olan Azərbaycan Respublikası bölgədə yeni və davamlı investisiya mühitinin inkişafına yol açdı. Hazırda Azərbaycanın işğaldan azad edilən bölgələrində sürətli quruculuq işləri öz axarı ilə davam edir. İnşaat işlərinin, yeni infrastruktur layihələrin icra olunduğu Azərbaycanın Qarabağ bölgəsinə yeni nəfəs, xoş güzəran gəldi.

Azərbaycan Respublikasında sülhün, əməkdaşlığın və dialoqun təminatçısına çevrilən şəhidlərimizin anım günü 27 sentyabr Azərbaycan tarixşünaslığında hələ uzun illər tədqiq olunacaq və yeni qəhrəmanlıq səhifələri ilə tanış olacağıq. Zəfərə aparan o tarixi gündən 10 noyabr 2020-ci il ə qədər keçən qısa, lakin şərəfli yolda canından keçən Vətən oğullarının şücaətlərlə zəngin ömür və döyüş yolu biz tarixçilərin hər daim diqqətində olan məsələlərdəndir.

Bununla bağlı akademik araşdırmalarını, tədqiqatlarını genişləndirən AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda 27 sentyabr tarixindən ötən altı il ərzində alimlər tərəfindən bir sıra tədqiqat işləri yerinə yetirilmişdir. Tədqiqatlarda dövlət başçısının polad və qətiyyətli siyasi iradəsi, Azərbaycanın dərin qatlarından süzülüb gələn və qədim dövlətçilik ənənələrinə əsaslanan tarixi faktların təhlilləri ilə müasir dövrdə dastan yazmış igidlərimizin şücaətləri, göstərdikləri böyük hünər və rəşadətli döyüş nümunələri də öz əksini tapır.

Müasir tarixdə altı il böyük rəqəm olmasa da onun arxasında son üç yüz ildə əldə edə bilmədiklərimiz, 44 günlük Vətən müharibəsində qazanılmış şanlı zəfər dayanır. Rəqəm kiçik, amma keyfiyyət yüksək olmaqla Azərbaycan Respublikası regionda olduğu kimi müasir beynəlxalq münasibətlərdə də sülh, inkişaf, yeni dialoq və əməkdaşlıq reallığı yarada bilmişdir.

2025-ci ilin 8 avqustunda ABŞ-də Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanması faktı bir daha aydın şəkildə göstərdi ki, tərəflər arasında siyasi dialoqun genişləndirilməsi hər zaman aktualdır və sülh müqaviləsinin imzalanması üçün resurslar tükənməmişdir. Bu məsələyə Azərbaycan dövlətinin öndərlik etməsi isə respublikanı yeni hədəflərə və prioritet əməkdaşlığa aparır.

Azərbaycan xalqının bu illər ərzində əldə etdiyi müsbət nailiyyətlərin arxasında dövlət başçısının siyasi və hərbi iradəsi, qazilərimizin və şəhidlərimizin güc birliyi bir daha göstərmiş oldu ki, düşmən tərəf atılan addımlardan nəticə çıxarmamış qızışdırıcı və təhrik edici hərəkətləri ilə xarici havadarlarına çox bel bağlamışdır. Nəticə isə göz qabağındadır. Uzun illər davam edən sülh danışıqları döyüş meydanında öz sözünü dedi və Azərbaycan ordusu Qarabağ Azərbaycandır! Şüarını rəhbər tutaraq müharibəyə son qoydu.

İndi bütün yollar Azərbaycan Respublikasının iqtisadi rayonu Qarabağ bölgəsinə aparır. Bu tarixi Azərbaycan regionu artıq beynəlxalq tədbirlərin, sülh mesajlarının bütün dünyaya yayıldığı sabitlik və əməkdaşlıq adasına çevrilib. Təkcə son illərdə Laçın şəhərində Azərbaycan Türkiyə Prezidentlərinin və Pakistan Baş nazirinin iştirakı ilə keçirilən Zirvə görüşü, 4 iyulda Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XVII Zirvə görüşü, 19 iyulda baş tutan, sayca III Şuşa Qlobal Media Forumu, 1 iyuldaAğdamda İƏT Gənclər Forumu, 2 iyulda Laçında İƏT Qadınlar Forumu və 2 iyulda Şuşada 6-cı İƏT Biznes Forumunun və s. tədbirlərin keçirilməsi Azərbaycanın şöhrətini bütün dünyaya yaymışdır. Bu tədbirlərdə alınan qərarlar region, eləcə də beynəlxalq aləm üçün müsbət nəticələr verəcək.

Tədbirlərlə bağlı xarici media mənsublarının yaydığı məlumatlar göstərmiş oldu ki, Azərbaycan öz tarixi ərazilərini məhz hərbi yolla azad etməkdə haqlı idi. Azərbaycanın sülh çağırışlarına məhəl qoymayan Ermənistan hökuməti 27 sentyabrdan keçən beş il ərzində həqiqəti qəbul etməyə məcbur qaldı və Azərbaycan Respublikasının beynəlxalq platformalarda keçirdiyi görüş və əməkdaşlıq münasibətləri düşmən tərəfinin məyusluğunu bir qədər də artırmış oldu. Bu səbəbdən 27 sentyabr Anım Günü dövlətlə xalqın vəhdət halında hərəkət edərək daha çox inkiaşafa və irəliləyişə səbəb yaratdığını göstərmiş oldu.

Hər il Anım Günündə respublikanın hər tərəfində, bütün regionlarında uyuyan Vətən oğullarının qəbirləri ziyarət olunur. Bakıda, həm də bölgələrdə salınan şəhidliklərdə başını dik tutan şəhid ana və atalarını müşahidə etdikcə Azərbaycanın hələ uzun əsrlər tarix səhnəsində qalacağına qəlbən və ruhən əmin olursan. Artıq dünya dövlətlərinin qarşısında 90-cı illərin Azərbaycanı yoxdur. Azərbaycan Respublikası gücünə güc qatmış, ölkələrin onunla hesablaşmasına nail olmuşdur. Qürurlu şəhid ailələrinin göstərdikləri səbr və mətanət, məğrur duruş gənclərimiz üçün örnək nümunələr olub şəhidlərimizin adının əbədiləşdirilməsinin davam etdiyini əks etdirir. Hər bir şəhid ailəsi dövlət qayğısı ilə əhatə olunmuş, hər il onların sosial müdafiəsi ilə bağlı yeni addımlar atılır, işlər görülür.

27 sentyabr tarixi Azərbaycanda təkcə bir gün, bir təqvim günü deyil. Bizim hər günümüz 27 sentyabrdır, hər dəqiqəmiz şəhidlərlə, respublikanın ərazi bütövlüyü uğrunda canını fəda etmiş oğullarımızla birlikdədir. Onların arasında şəhid qızlarımızı da yad etmək istərdik. II Qarabağ savaşında canından torpağa can verən şəhid Arəstəni də bu gün yad edirik. Onun müharibə dövründə yaralı əsgər və zabitlərimizə göstərdiyi ilk tibbi yardımı hər kəs yaxşı xatırlayır. 44 günlük Vətən müharibəsinin tək şəhid xanımı Arəstənin xatirəsi doğulub böyüdüy Xaçmaz şəhərində də böyük ehtiram və minnətdarlıq hissi ilə yad edilir. Ötən bu illər ərzində şəhid xanımın adının əbədiləşdirilməsi ilə bağlı addımlar atılmış, ailəsinə dövlət tərəfindən diqqət yetirilmişdir.

Bu fakt onu göstərir ki, Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda şəhid edilən bacı və qardaşlarımızı bir-birindən ayırmırıq, onların hər birinin özəl xatirəsi var qəlblərimizdə. İllər ötəcək, neçə beş illiklər keçəcək və tarix onları yad etməyə, vəsf etməyə davam edəcək. Şəhidlərimizə layiqli qiymət verən Azərbaycan hökumətinin bu baxımdan ötən dövr ərzində apardığı davamlı inkişaf siyasəti öz bəhərsini vermiş, vətəndaşlarımızın sosial rifah halı bir qədər də yüksəlmişdir.

